

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

4 dekabr
2025-ci il,
cümə axşamı
№ 221 (7048)
Qiymətí
60 qəpik


# "Zəfər" peykimiz orbitdə!




## Vətənpərvərlik ruhu və texnoloji marağı birləşdirən layihə

Bax səh. 2

## "Yaşıl Enerji Dəhlizi"ndə yeni mərhələ

Bax səh. 4




## Avropa İttifaqı Zəngəzur dəhlizinə qoşulur

Bax səh. 3

## TDT ölkələrinin vahid tematik xəritəsi hazırlanır

Bax səh. 4




## Azərbaycanın daha bir uğuru!

Bax səh. 2

## "Yaşıl enerji"yə keçid prioritetdir

Bax səh. 3

## İstehsalın artırılması naminə

Bax səh. 5

## Peşə təhsilimiz yeni modelə keçir

Bax səh. 5

## 5 saat bağlı qapılar arxasında...

Bax səh. 6



## Diplomat, yoxsa dələduz?

Bax səh. 7



## Ər-Riyad görüşü də sülhü təmin edə bilmədi...

Bax səh. 7

# “Zəfər” peykimiz orbitdə!

## Vətənpərvərlik ruhu və texnoloji marağı birləşdirən layihə

Azərbaycanın tarixində ilk dəfə “Azərbaycanın Zəfəri” adlı məktəbli peyki orbitə çıxarılıb. Azərbaycan Kosmik Agentliyinin (“Azərkosmos”) nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın “Milli Peyk İnnovasiya” müsabiqəsi çərçivəsində 7-9-cu sinif şagirdləri tərəfindən hazırlanan bu kiçik ölçülü - “PocketQube” tipli peyk artıq kosmosdadır. Qürurverici layihə ölkənin təhsil və innovasiya ekosistemində tarixi dönüş nöqtəsi hesab olunur.

Azərbaycanın 41 məktəbindən 672 şagirdin iştirak etdiyi proqram regionda məktəblilər arasında həyata keçirilən ən geniş kosmik təşəbbüslərdən biri kimi qeyd olunur. Peykimiz orbitdə baza sınaqlarını həyata keçirəcək, telemetriya məlumatları toplayacaq və şagirdlərə buraxılışdan sonra da peyk əməliyyatları üzərində real təcrübə əldə etmək imkanı verəcək. Bu buraxılış Azərkosmosun yerli istedadların inkişafına, gənclərin innovativ təşəbbüslərinə və dayanıqlı milli kosmik ekosistemin qurulmasına yönəlmiş fəaliyyətinin növbəti mərhələsini təşkil edir.




### “Falcon 9” raketi tərəfindən buraxılıb

“Azərkosmos” nəzdindəki KOSMİK Akademiyanın rəhbəri İmran Muxtarov peykin buraxılmasına həsr edilmiş brifinqdə bildirib ki, “Azərbaycanın Zəfəri” adlı peyki orbitə “SpaceX” şirkətinin “Falcon 9” raketi buraxıb. Onun sözlərinə görə, “PocketQube” tipli, ölçüsü 5x5x5 sm, çəkisi isə təxminən 250 qr olan bu peyklər möhkəm materiallardan hazırlanır ki, bu da həm mexaniki davamlılığı, həm də istilik idarəetməsini təmin edir: “ “PocketQube” peykləri ilk dəfə 2013-cü ilin noyabr ayında orbitə buraxılıb. Bu buraxılış Avstriyaya məxsus “UniSat-5” platforması vasitəsilə həyata keçirilib və layihə çərçivəsində bir neçə minipeyk, o cümlədən “WREN” (Almaniya), “T-LogoQube” (ABŞ) və “QBScout-1” (İtaliya) peykləri orbitə yerləşdirilib. Bu konsepsiya yalnız texnoloji tərəqqinin məhsulu deyil, həm də kosmosun hamıya aid olduğu ideyasının bir növ simvoludur”.

### Gələcəyimiz üçün mühüm sərmayə

“Azərkosmos” İdarə Heyətinin sədri vəzifəsini icra edən Dunay Bədirxanov bildirib ki, məktəblilərin hazırladıqları “Zəfər” peykinin orbitə buraxılması ölkənin gələcəyinə edilən mühüm sərmayədir. O qeyd edib ki, şagirdlərə real kosmik avadanlığı dizayn edib sınaqdan keçirmək və orbitə göndərmək imkanı yaratmaqla Agentlik gələcəyin kosmik mütəxəssislərini yetişdirir: “Bu məktəbli layihəsi ölkəmizdə artıq 15 ildir ki, formalaşmış müasir kosmik ekosistemin bəhrəsidir. Bu gün bizim məktəblilər kosmosa yalnız peyk deyil, öz arzularını da göndərdilər. Bu uğur Azərbaycanın təhsil sahəsinə edilən investisiyanın real texnoloji nəticələrə çevrildiyini göstərir”.

O qeyd edib ki, “Zəfər” peykini 297 nömrəli məktəbin şagirdləri hazırlayıb: “Layihə gənc nəsildə vətənpərvərlik ruhunu, yaradıcı düşüncəni və texnoloji marağı birləşdirən hadisə kimi dəyərləndirilir”.









### Təxminən bir il orbitdə olacaq

D.Bədirxanov bildirib ki, “Zəfər” peyki təxminən bir il müddətində orbitdə olacaq və əşyaların IoT istiqamətində xidmətlər göstərəcək: “Həmin müddət ərzində davamlı olaraq peykdən məlumatlar alınaraq təhsil sahəsində tətbiq ediləcək. Bildiyiniz kimi, IoT sahəsi ümumilikdə texnologiyalarda çox yenidir. Belə ki, çox kiçik, güclü, faydalı yüklər vasitəsilə çox böyük bir məlumatlar dünyanın hər yerindən əldə edilə bilər. Bu, peyklər yerləşdiyi 500 kilometr hündürlükdə daimi dövr edərək dünyanın hər yerini gəzə biləcək və orada yerləşdirilmiş IoT sensorlardan məlumatları toplaya biləcək”.

### “Texnologiya liderlərini yetişdirməyə davam edəcəyik”

Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müşaviri Rəşad Bayramov bildirib ki, layihənin “Azərbaycanın Zəfəri” adlandırılması təsadüfi deyil: “Peyk Vətən müharibəsində qazanılan şanlı Zəfərdən ilhamlanaraq hazırlanıb və məktəblilərin vətənpərvərlik ruhunu, yaradıcılıq potensialını və texnologiyaya marağını artıran mühüm təşəbbüsdür.

Azərbaycan məktəblərinin iştirakı ilə reallaşdırılan bu təşəbbüs regionda ən geniş texniki-innovasiya proqramlarından biri hesab olunur. Bu layihə gənclərin gələcəkdə kosmik texnologiyalar, mühəndislik və proqramlaşdırma sahələrində bilik və bacarıqlarının inkişafına mühüm töhfə verəcək. Eyni zamanda, belə layihələr gənclərimizin Azərbaycan kosmik texnologiyalarının inkişafında iştirakını genişləndirir və onların gələcək innovasiya layihələrində mühüm rol oynayacağına əminlik yaradır. Azərbaycan gəncləri artıq bu böyük dəyişikliklərin bir parçasıdır və biz texnologiya liderlərinin yetişdirilməsi istiqamətində işi davam etdirəcəyik”.

Məktəblilərimizin möhtəşəm layihəsi barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən İKT üzrə mütəxəssis Pərvin Əsədov bildirib ki, orta məktəblərin müasir texnoloji avadanlıqlarla təmin edilməsi istiqamətində atılan addımlar şagirdlərin gələcək uğurlarında mühüm rol oynayır: “Kosmik yeniliklərlə bağlı seminarlar, təlim proqramları və layihələr vasitəsilə şagirdlər kiçik yaşlarından müasir texnologiyaların necə işlədiyini öyrənirlər. Bundan başqa, onlar bu sahədə gələcək karyeralarını qurmağa təşviq olunurlar.

“Azərkosmos”un nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın bu kimi təşəbbüsləri azərbaycanlı məktəblilərin kosmos, rəqəmsallaşma, innovasiya sahəsində bilik və bacarıqlarını artırmaqla yanaşı, Azərbaycanda insan kapitalının inkişafına zəmin yaradır. Məktəblilərimizin bu uğuru Azərbaycanın təhsil sahəsinə edilən investisiyanın real texnoloji nəticələrə çevrildiyini göstərir “Zəfər” peykinin buraxılması gənc nəsildə vətənpərvərlik ruhunu, yaradıcı düşüncəni və texnoloji marağı birləşdirən hadisədir”.

*Yeganə*

# Azərbaycanın daha bir uğuru!

## UNESCO-da ölkəmizə növbəti böyük etimad

Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin mühafizəsi üzrə 1954-cü il Haaqa Konvensiyasının İkinci Protokoluna tərəf dövlətlərin 16-cı iclası keçirilib və həmin tədbirdə respublikamız UNESCO-nun Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilib. Bu barədə Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.




Azərbaycanın komitəyə üzv seçilməsi ölkəmizin mədəni irsin qorunması sahəsində beynəlxalq aləmdə formalaşmış müsbət imicinin, beynəlxalq platformalarda nümayiş etdirdiyi fəallığın və apardığı ardıcıl siyasətin göstəricisidir.

### Dünyada ölkəmizin artan nüfuzu

Bildirildiyi kimi, 4 vakant yer uğrunda Azərbaycanla birgə 6 ölkə mübarizə aparıb. Rəqabət şəraitində keçirilmiş seçkilərin nəticəsində Azərbaycan səsvermənin ilk mərhələsində iştirak edən ölkələrin əksəriyyətinin səsini toplayıb.

Bu, böyük etimaddır və beynəlxalq birliyin ölkəmizə olan rəğbətini təsdiqləyir. Cənubi Qafqaz regionunda lider dövlət kimi çıxış edən, müstəqil xarici siyasət həyata keçirən Azərbaycan beynəlxalq müstəvidə səmərəli əməkdaşlıq əlaqələrinə malikdir. Bu kontekstdə ölkəmizin beynəlxalq qurumlarla əməkdaşlığı xüsusilə qeyd edilməlidir. Daha da dəqiqləşdirsək, həyata keçirdiyi balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ilə regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən, dünya siyasətində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Həmçinin, məmnunluq hissi ilə bildirmək yerinə düşər ki, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Ölkəmiz isə müxtəlif beynəlxalq qurumlarda sadəcə üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, onların funksionallığının artmasına davamlı töhfələr verir, qərarların qəbul və icra olunmasında mühüm rol oynayır. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan qısa müstəqillik tarixində BMT Təhlükəsizlik Şurasına (TŞ) qeyri-daimi üzv seçilib, sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına uğurla sədrllik edib, Türk Dövlətləri Təşkilatında (TDT) öncül ölkələrdən birinə çevrilib, əksər regional təşkilatlarda uğurlu təmsilçiliyə malikdir.

O cümlədən Azərbaycan - UNESCO əlaqələrinin genişlənməsi də məmnunluq doğurur. Müstəqil Azərbaycan 3 iyun 1992-ci il tarixində UNESCO-ya üzv qəbul edilib və qurumun ən fəal üzvlərindən biri kimi fəaliyyət göstərir. Qurumun sabiq və hazırda fəaliyyətdə olan rəsmilərinin də bildirdikləri kimi, Azərbaycan-UNESCO münasibətləri dinamik səciyyə daşıyır, indiyədək ölkəmiz tərəfindən təşkilatın mandatı çərçivəsində saysız-hesabsız layihələr reallaşdırılıb. Ölkəmizin bir sıra təşəbbüsləri, o cümlədən mədəniyyətlərarası dialoq və idman sahələri üzrə hazırladığı müvafiq qətnamə layihələri İcraiyyə Şurasında müzakirələrə çıxarılıb və üzv dövlətlər tərəfindən yekdilliklə qəbul olunub. İndiyədək Azərbaycan UNESCO-nun əksər konvensiyalarına qoşulub və üzərinə düşən öhdəlikləri məsuliyyətlə yerinə yetirir. Ölkəmiz UNESCO-nun bir sıra alt qurumlarında da uğurla təmsil olunur. Eyni zamanda, respublikamızda ayrı-ayrı sahələr üzrə milli komitələr yaradılıb. Eləcə də, Azərbaycanla UNESCO arasında qarşılıqlı fəaliyyətin hüquqi əsaslarını təmin edən sənədlər imzalanıb.

### Mədəni irsin qorunması naminə davamlı fəaliyyət

Sözügedən komitə silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunmasını təmin etmək, 1954-cü il Haaqa Konvensiyasının və onun İkinci Protokolunun tələblərinə əməl olunmasına nəzarət etmək, habelə dövlətlərə bu sahədə texniki, hüquqi və institusional dəstəyin göstərilməsini təşviq etmək məqsədilə yaradılıb. Azərbaycanın UNESCO-nun Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması üzrə Komitəsinə 2025-2029-cu illər üzrə üzv seçilməsini şərtləndirən digər bir mühüm amil də ölkəmizin reallıqları və Azərbaycan dövlətinin mədəni irsin qorunmasına verdiyi böyük önəmlə bağlıdır. Deyə bilərik ki, respublikamızda bu istiqamətdə davamlı və məqsədyönlü fəaliyyət həyata keçirilir. Azərbaycan abidələr diyarıdır və bu abidələr müxtəlif sivilizasiyalara aiddir. Ancaq müstəqil Azərbaycan dövləti xalqımızın əsrlərdən gələn tolerantlqı ənənələrinə sadiq qalmaqla heç bir fərq qoymadan onların hamısının qorunmasına böyük qayğı göstərir.

Digər bir mühüm məqam ondan ibarətdir ki, Azərbaycan da silahlı münaqişələrdən keçən ölkədir. Təxminən 30 il ərzində ərazilərimizin 20 faizi işğalçılıq siyasəti aparan Ermənistanın nəzarəti altında qalıb. İşğal illərində 11 min kvadratkilometrdən artıq ərazilərimizdə hər şey, o cümlədən də 65 tarixi mədəni-dini abidə erməni vandalları tərəfindən dağıdılıb və yaxud təhqirlərə məruz qalıb. 44 günlük Vətən müharibəsindən sonrakı mərhələdə qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirir, o cümlədən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bəhs olunan ərazilərdəki dağıdılmış tarixi mədəni-dini abidələrin bərpasını həyata keçirir.

Fond tərəfindən belə layihələr həmçinin ölkə hüdudlarından kənarda da reallaşdırılır. Məsələn, Fond tərəfindən Bolqarıstanın Veliko-Tırnovo şəhərindəki “Trapezitsa” Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası həyata keçirilib. Qoruğun bərpadan sonra açılışı 23 sentyabr 2016-cı il tarixində Bolqarıstanın Baş nazirinin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə baş tutub.

Heydər Əliyev Fondu tərəfindən Vatikanda reallaşdırılan layihələrin sayı da çoxdur. 2016-cı il fevralın 23-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Vatikanda bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının açılışı olub. Açılış mərasiminə qatılan Mehriban xanım Əliyeva tədbirdə çıxış edib. Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı “Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü” barelyefinin, Vatikan Bazilikasındakı katakombalarda yerləşən “Tullius Zethus” məqbərəsinin, “Müqəddəs Komodiliya” katakombalarındakı mavzoleyin bərpası da Fond tərəfindən böyük uğurla həyata keçirilib.

Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun mədəniyyətlərarası dialoqun gücləndirlməsinə verdiyi davamlı töhfələr UNESCO-da yüksək dəyərləndirilir. Mehriban xanım Əliyeva ölkəmizin zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə 2004-cü ilin sentyabr ayında UNESCO-nun şifahi və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülüb (2004-2022). Eyni zamanda, Azərbaycanın 3 maddi mədəni irs nümunəsi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bunlar aşağıdakılardır: “İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi” (2000);”Qobustan Qaya Sənəti Mədəni Landşaftı” (2007) və “Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi” (2019), Xınalıqların Mədəni Landşaftı və “Köç yolu” Marşrutu (2023), Azərbaycanın Hirkan meşəsi” (2023). Azərbaycanın 19 qeyri-maddi mədəni irs nümunəsi isə UNESCO-nun Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

***Mübariz ABDULLAYEV***

# Avropa İttifaqı Zəngəzur dəhlizinə qoşulur

## TRIPP layihəsi qlobal əhəmiyyətli rifah və əməkdaşlıq körpüsünə çevrilməkdədir

Avropa İttifaqının (Aİ) genişlənmə siyasəti üzrə ali komissarı Marta Kos "Tramp yolu" (TRIPP) layihəsində Aİ-nin mümkün iştirakını istisna etmədiyini bildirib. Aİ-nin ali komissarı vurğulayıb ki, layihəni həyata keçirmək Ermənistan və ABŞ arasında əldə edilmiş razılaşmanın tələblərindən biridir və proses uğurla davam etdirilməkdədir. TRIPP və ya Zəngəzur dəhlizinə beynəlxalq marağın olması Avropa İttifaqını da bu qlobal nəqliyyat arteriyasına qoşulmağa həvəsləndirir. Aİ ABŞ-la bu məsələni müzakirə edir və regionda geniş, ümumi bağlantı xəritəsini nəzərdə tutan trans-nəqliyyat şəbəkəsinin yaradılmasını dəstəkləyəcəyini xatırladır.

M.Kosun qənaətinə görə, Zəngəzur dəhlizi Aİ-nin Şəqlə logistik bağlantılarını əlaqələndirməkdə mühüm qovşaqlardan biri ola bilər. Bu layihə Orta Dəhlizinin bir hissəsi kimi Söhbət Mərkəzi Asiyadan Avropaya gedən yolun qısaldılmış nəqliyyat bloku olmaqla daha təhlükəsiz və manesiz daşınmaların sərfəli marşrutu deməkdir. Söhbət 42 km-lik yoldan getmir, layihənin coğrafi hüdudları daha geniş və böyük regional logistikaları əhatə edir. Ona görə də, Aİ üçün strateji maraq kəsb edən bu yolun Şərq və Qərbə doğru uzanan bütün kommunikasiya əlaqələrini əhatə etməsi və paralel şəkildə nizamlanan vahid nəqliyyat habının yaradılmasıdır.

### Aİ-Azərbaycan-Ermənistan-Türkiyə qrupu yaradıla bilər

Aİ-nin ali komissarı TRİPP layihəsi ilə bağlı Ermənistan, Türkiyə və Azərbaycanla çoxtərəfli müzakirələrin aparıldığını, bu məqsədlə dördtərəfli xüsusi qrupun yaradılmasının müzakirə edildiyini xatırladıb. Bildirib ki, layihənin regionda geniştutumlu əməkdaşlıq və rifah körpüsünə çevrilməsi üçün Aİ bütün səyləri dəstəkləncək. Marta Kosun fikrincə, Orta Dəhliz kimi də tanınan Transxəzər nəqliyyat marşrutu Çin, Orta Asiya, Cənubi Qafqaz və Qara dənizi Avropa ilə birləşdirən dəmir yolları və liman şəbəkəsindən ibarət olmaqla, marşrut boyunca yerləşən bütün ölkələr üçün geosiyasi və iqtisadi faydalılıq platformasıdır. Onun sözlərinə görə, Orta Dəhliz boyunca yük daşınması 2022-ci ildən bəri artıq dörd dəfə artıb. 2030-cu ilə qədər, investisiyalar onun tutumunu artırmaq və maneələri aradan qaldırmaq üçün diqqətlə yönəldilərsə, üçqat arta bilər.

Transxəzər nəqliyyat dəhlizi Aİ-nin "Global Gateway" ("Qlobal Qapı") strategiyasının flaqman təşəbbüsüdür və Avropa ilə Mərkəzi Asiyanı birləşdirməyi hədəfləyir. Azərbaycan Asiya ilə Avropa arasındakı bu marşrutun qovşağında yerləşdiyi və birbaşa Azərbaycanla əlaqəli olduğu üçün bu təşəbbüs üçün əsas mərkəz hesab olunur.




### Orta Dəhliz-Zəngəzur-Avropa nəqliyyat kompozisiyası qurulur

Təchizat zəncirlərinin dəyişdiyi, qlobal rəqabətin sərtləşdiyi bir vaxtda Mərkəzi Asiya ilə sabit ticarət xəttinə malik olmaq həm də təhlükəsizlik məsələsidir. Çin-Qazaxıstan-Xəzər-Azərbaycan marşrutu ən rəqabətqabiliyyətli logistika xəttidir. Aİ hesab edir ki, Zəngəzur dəhlizi Avropanın Cənubi Qafqazla bağlı uzunmüddətli strategiyasını tamamlayan amil olmaqla yanaşı, Mərkəzi Asiya bazarlarına çıxışda da həlledici rol oynaya bilər. Dəhlizin avtomobil, dəmir yolu və multimodal imkanları Avropanın uzunmüddətli maraqları ilə ziddiyyət təşkil etmir, əksinə, onlara uyğunlaşır. Ona görə də, Avropa Birliyi bu müasir infrastruktur ve rahat logistika təminatları blokunda yer almağı özü üçün vacib hesab edir.

Azərbaycanın çoxvektorlu nəqliyyat siyasəti isə regional coğrafiyalarda ölkələri iqtisadi klubda birləşdirməyə, əməkdaşlıq və rifahın yeni koordinatlarını müəyyən etməyə, yeni tərəfdaşları inteqrasiyaya cəlb etməyə hesablanıb. Azərbaycan Prezidentinin bəyan etdiyi kimi yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.

Orta Dəhliz-Zəngəzur vahid nəqliyyat kompozisiyası kəsb etməklə region və dünya üçün beynəlxalq əhəmiyyətini artırmaqdadır.Zəngəzurun gerçək logistik təsvirini və iqtisadi təsnifatını isə belə səciyyələndirmək olar:

- Dəhliz qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaltdır.
- Böyük bir coğrafiyada iqtisadi inteqrasiyanı böyütməklə regional inkişafa ciddi təkan yaradır.
- Beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də, milli gəlirlərin artmasına töhfə verir.

Göründüyü kimi Zəngəzur dəhlizini təkcə infrastruktur layihəsi deyil, qlobal tərəfdaşlar, o cümlədən də Avropa Birliyi üçün Azərbaycanla strateji əməkdaşlığın yeni platforması kimi səciyyələndirilməkdədir. Rəsmi Bakı bu dəhlizə Avropa İttifaqını yalnız nəqliyyat marşrutu üzrə üzv və tərəfdaş kimi dəvət etmir, eyni zamanda, həm siyasi, həm də iqtisadi investisiya proqramının əsas liderlərdindən biri kimi yanaşır.

### "Qlobal Qapı"nın Cənubi Qafqaza açılan qolu

Aİ-nin ali komissarı M.Kosun Zəngəzurla bağlı mövqeyi həm də Avropa şirkətlərinin, həm də maliyyə institutlarının investisiya qərarlarına mühüm təsirgöstərici amil kimi dəyərləndirilə bilər. Azərbaycanla yaxın enerji əməkdaşlığı quran, son 4 ildə isə təbii qaz üzrə yeni strateji hədəflər müəyyən edən Avropanın karbohidrogen kəmərləri ilə bərabər, nəqliyyat kommunikasiyalarında da birgə alyansa qoşulması Bakı ilə tərəfdaşlığın çoxistiqamətli formatını yaradacaq, inteqrasiyanı dərinləşdirəcək.

Azərbaycanın səyləri ilə regionda əsası qoyulmuş uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişaf və yeni iqtisadi rifah arxitekturası sayəsində Cənubi Qafqaz bölgəsində yeni əməkdaşlıq landşaftı formalaşır, xarici investorların azad ərazilərdə başlatdığı qeyri-neft proqramları, "yaşıl enerji" layihələri, qeyri-neft sahələrinin, turizm potensialının daha da güclənməsinə istiqamətlənmiş təşəbbüslər regionun iqtisadi rifah mənzərəsini dəyişir, böyük iqtisadi əməkdaşlıq koalisiyası qurulur, habelə Orta Dəhlizin ən mühüm xətti olan Zəngəzurun açılmasına yönəlik addımlar uzunömürlü rifaha möhkəm zəminlər yaradır.

Beləliklə, Avropa İttifaqı Azərbaycanla birgə enerji-logistika zəncirlərində tərəfdaşlıq etməklə, ticarət-investisiya kanallarını genişləndirərək həm respublikamızla sıx iqtisadi münasibətləri möhkəmləndirəcək, həm də Cənubi Qafqazda sülh və rifah quruculuğunda yer alacaq.

**ELBRUS CƏFƏRLİ**

# "Yaşıl enerji"yə keçid prioritetdir

## ADA Universitetində keçirilən beynəlxalq konfransda səmərəli müzakirələr aparılıb

**Nardar BAYRAMLI**

Hazırda ətraf mühitə vurulan zərərin, ekoloji problemlərin qarşısının alınması qlobal bir çağırışdır. Getdikcə daha təhlükəli hal alan bu təhdidlər təxirəsalınmaz tədbirlər görülməsini, ölkələrin və beynəlxalq təşkilatların koordinasiyalı fəaliyyət göstərməsini zərurətə çevirib. Azərbaycan da bu çağırışa qoşulan ölkələr sırasındadır. Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiyanın qorunması xüsusi diqqət mərkəzindədir. Ötən dövr ərzində bu istiqamətdə ölkə rəhbəri tərəfindən dövlət proqramları təsdiq edilib, müvafiq fərman və sərəncamlar imzalanıb.

Bu gün ölkəmiz yaşıl enerjiyə keçidi prioritet elan edib. Azərbaycan yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Buna misal olaraq, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib. Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensiali quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə yaşıl iqtisadiyyata keçidlə bağlı qarşıya yeni hədəflər qoyur. Eləcə də, Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasını və işğaldan azad edilmiş ərazilərimizi yaşıl enerji zonası elan edib. Son beş ildə xüsusilə, Qarabağ və Şərqi Zəngəzurda alternativ enerji üzrə bir sıra əhəmiyyətli işlər görülür. Artıq bir sıra SES-lər tikilib istifadəyə verilib və gələcəkdə onların sayının artırılması nəzərdə tutulur.





Bütövlükdə, yaşıl iqtisadiyyata keçid daim cəmiyyətimizin gündəmindədir. Müxtəlif qurumlar, o cümlədən ali məktəblər səviyyəsində bu mövzuda davamlı olaraq tədbirlər keçirilir. Yeri gəlmişkən, bu günlərdə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Aparıcı Universitetlər Tərəfdaşlıq Şəbəkəsinin (AUTŞ) Koordinasiya Şurasına sədrlik edən ADA Universitetində "Yaşıl enerji və dayanıqlılıqda universitetlərin rolu" adlı beynəlxalq konfrans keçirilib.

Konfrans ADA Universiteti, İnkişaf və Diplomatiya İnstitutu (IDD), Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) və AQEM-in tərəfdaşlığı ilə təşkil olunub. Tədbirdə Azərbaycan ilə yanaşı, Banqladeş, Birləşmiş Ərəb Əmirlikləri, Çin Xalq Respublikası, Fələstin, Hindistan, İordaniya, İraq, İran, İsrail, Koreya Respublikası, Qazaxıstan, Qırğızıstan, Misir, Özbəkistan, Pakistan, Rusiya, Tacikistan, Tailand, Türkiyə və Vyetnam da daxil olmaqla 21 üzv ölkədən 50-dən çox professor, tədqiqatçı və universitet nümayəndəsi iştirak edib. İki gün davam edən konfransda universitetlərin enerji səmərəliliyinin artırılmasında rolu, yaşıl texnologiyaların tətbiqi, dayanıqlılıq sahəsində regional əməkdaşlıq, bərpaolunan enerji və enerji səmərəliliyində innovativ yanaşmalar mövzularında fikir mübadiləsi aparılıb. Tədbir, həmçinin AQEM çərçivəsində universitetlər arasında yeni tərəfdaşlıq təşəbbüslərinin müzakirəsi və birgə layihələr üçün platforma rolunu oynayır.

Tədbirin açılış mərasimində ADA Universitetinin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə yaşıl enerji sahəsində universitetlərin rolunun olduqca əhəmiyyətli olduğuna diqqət çəkib: "Ali təhsil müəssisələri yalnız bilik mərkəzi deyil, həm də gələcəyin ixtisaslı mütəxəssislərini yetişdirən institutlardır. Universitetlər təhsil proqramlarını və tədqiqatlarını dayanıqlı inkişaf və yaşıl enerji prinsiplərinə uyğunlaşdıraraq, həm ətraf mühitin qorunmasına, həm də iqtisadi və sosial inkişafın güclənməsinə töhfə verirlər".

AQEM-in Baş katibinin müavini Zhang Ling qeyd edib ki, Azərbaycanın sədrliyi dövründə universitetlər arasında əməkdaşlıqla bağlı yeni təşəbbüs irəli sürülüb. "Bu təşəbbüsə bütün universitetlər qoşula bilər və o, tədqiqat sahəsində əməkdaşlığın genişlənməsinə xidmət edir. Təşəbbüs dayanıqlı inkişaf, iqlim dəyişmələri və digər müvafiq istiqamətləri əhatə edir. Universitetlər yalnız bilik mərkəzləri kimi deyil, həm də faktlara əsaslanan siyasətlərin formalaşdırılmasına təkan verən vacib institutlar kimi çıxış edirlər. Gənclərimiz isə müasir çağırışlara cavab verən yeni ideya və yanaşmaların əsas daşıyıcılarıdır", - deyə Baş katibin müavini əlavə edib.

Azərbaycan xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyev qeyd edib ki, sədrlik dövründə əlaqələrin möhkəmləndirilməsi, rəqəmsallaşma və Asiyada dayanıqlı inkişafın təşviqi əsas prioritetlər kimi müəyyən edilib. Rəqəmsal həllər üzərində fəal iş aparılıb. Azərbaycan çoxtərəfli əməkdaşlıq formatında öz ənənəsini davam etdirərək il ərzində təşkilat çərçivəsində mühüm və uğurlu addımlar atıb: "Bu müddətdə AQEM-in Qadınlar Şurası yaradılıb və Maliyyə Sammiti təsis edilib. Hər iki qurum gələcəkdə də təşkilat daxilində əməkdaşlığın dərinləşməsinə töhfə verəcək. Bununla yanaşı, Azərbaycan ötən ay Gənclər Təşkilatının 8-ci toplantısını, həmçinin AQEM-in Biznes Şurasının 8-ci iclasını keçirib. Bütün bunlar göstərir ki, Azərbaycan sədrlik çərçivəsində öz iddialı məqsədlərinə nail olub. Hazırda isə AQEM-in Baş Assambleyasının keçirilməsi planlaşdırılır".

Çıxışlarda iqlim dəyişikliklərinə qarşı mübarizədə ali təhsilin artan rolu, regional həmrəyliyin əhəmiyyəti və COP29 çərçivəsində əldə olunan nəticələr vurğulanıb. Proqramın "Ali təhsilin yaşıl enerjiyə və dayanıqlılığa təsiri" mövzusuna həsr olunmuş ilk panelində Azərbaycan, Özbəkistan, Tailand, İordaniya, Çin və Vyetnamdan olan iştirakçılar yaşıl enerji sahəsində ali təhsil müəssisələrinin rolu, davamlı inkişaf strategiyaları və universitetlərarası əməkdaşlıq imkanları barədə müzakirələr aparıblar.

Konfrans çərçivəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və ADA Universiteti tərəfindən 2025-ci ilin sentyabr ayından başlanılan "Yaşıl və dayanıqlı bərpa: Azərbaycan təcrübəsi" adlı birgə tədqiqat layihəsi təqdim olunub. Layihə Ağdam, Füzuli, Şuşa və Zəngilan rayonlarında keçmiş məcburi köçkünlərlə aparılmış sorğular əsasında onların sosial-iqtisadi ehtiyacları, dayanıqlı inkişaf istiqamətləri üzrə tövsiyələr və innovativ yanaşmaları əhatə edir.

Paneldə, həmçinin Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarında Xüsusi Nümayəndəliyinin baş məsləhətçisi Şamxal Muxtarov və Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Xüsusi Nümayəndəliyinin baş məsləhətçisi Nərgiz Qaracayeva çıxış edərək işğaldan azad olunan ərazilərdə dayanıqlı inkişaf, "ağıllı kənd" konsepsiyası və ekoloji bərpa istiqamətində görülən işlər barədə məlumat veriblər.



# TDT ölkələrinin vahid tematik xəritəsi hazırlanır

*Nardar BAYRAMLI*

Dekabrın 3-də Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) Xəritəçilik İşçi Qrupunun 2-ci iclası keçirilib. İclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, eləcə də müşahidəçi statusunda olan Macarıstan və Şimali Kipr Türk Respublikasının geodeziya, kartoqrafiya, yerquruluşu, kadastr, yerin məsafədən tədqiqi və coğrafi informasiya sistemləri üzrə müvafiq qurumlarının nümayəndələri iştirak ediblər.

Azərbaycan tərəfi iclasa Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, ETSN yanında Geodeziya və Kartoqrafiya Agentliyinin nümayəndələri, həmçinin digər aidiyyəti qurumların mütəxəssisləri ilə qatılıb. Tədbirdə ekologiya və təbii sərvətlər nazirinin birinci müavini Rəşad İsmayılov bildirib ki, Azərbaycanda xəritəçilik sahəsi uzun və dinamik inkişaf yolu keçib: “Biz xəritəçilik üzrə əməkdaşlığın daha da sürətlənməsinə böyük önəm veririk. Təbii ehtiyatların xəritələnməsi və regional ekosistemin vahid sisteminin formalaşdırılması TDT qarşısında duran əsas prioritetlərdən biridir”.

Onun sözlərinə görə, təşkilatın beynəlxalq nüfuzu getdikcə artır: “TDT çərçivəsində müxtəlif platformalar üzrə əməkdaşlıq genişlənir. Hazırda təşkilat daxilində regional səviyyədə vahid standartların yaradılması və ortaq tematik xəritəçilik mexanizmlərinin genişləndirilməsi üçün ciddi imkanlar mövcuddur”. R.İsmayılov qeyd edib ki, qarşıdakı dövrdə xəritəçiliyin inkişafı üçün Azərbaycan töhfə verməyə hazırdır.

O, deyib ki, həmsərhəd ölkələrdə dövlət sərhədinin demarkasiyası və delimitasiyası üçün mühüm işlər görülür. R.İsmayılov, eyni zamanda, növbəti iclasın Qazaxıstanda keçiriləcəyini vurğulayıb. Nazirin birinci müavini xatırladıb ki, ötən il Ankarada qəbul edilmiş bəyannaməyə uyğun olaraq TDT ölkələrinin Vahid Tematik Xəritəsinin hazırlanması da iclasın müzakirə mövzuları sırasındadır.

TDT Baş katibinin müavini Merey Mukajan çıxışında bildirib ki, türkdilli ölkələr öz xəritələrini hazırlayırlar və iclasın nəticəsi olaraq bu, gələcəkdə hərbi mülki xəritəçəkmə təsisatları arasında əməkdaşlığı daha da gücləndirəcək. “Türkdilli ölkələr beynəlxalq elmə, o cümlədən riyaziyyat, fizika və astronomiyaya çox böyük töhfələr veriblər, kartoqrafiya inkişaf edib. Əminəm ki, bu görüşümüz türkdilli dövlətlər arasında körpü olacaq, məhsuldar əməkdaşlığın əsası qoyulacaq”, - deyən M.Mukajan əlavə edib ki, təşkilatın son Zirvə görüşündə dövlət başçıları Qəbələ bəyannaməsini qəbul etdilər. “TDT-nin humanitar, siyasi, iqtisadi, təhsil, mədəniyyət sahəsində əməkdaşlığın inkişafının vacibliyini vurğuladılar. Bunun üçün biz kollektiv strategiyalar hazırlamalıyıq, tərəfdaşlığımızı gücləndirməliyik. Bu görüşdə sədrlik Azərbaycana keçib. Düşünürəm ki, bu görüş Azərbaycanın sədrliyi üçün önəmli töhfə verə bilər”, - deyə o qeyd edib.

Müdafiə Nazirliyinin Baş Əməliyyat İdarəsinin rəisi general-leytenant Azər Əliyev isə bildirib ki, Azərbaycanda Dünya Geodeziya Qlobal Sistemi (WGS-84) əsasında yeni topoqrafik xəritə hazırlanıb. Onun sözlərinə görə, xəritə Geodeziya və Kartoqrafiya Agentliyi tərəfindən Vətən müharibəsindən sonra Müdafiə Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə hazırladığı texniki tapşırığa uyğun olaraq tərtib edilib.

A.Əliyev, həmçinin deyib ki, Azərbaycanda tətbiq olunan rəqəmsal modellər uzun müddətdir müdafiə və təhlükəsizlik sahəsində inkişaf etdirilir: “Bu sistemlərin əsasında relyefin müəyyən edilməsi, yüksəklik modelləri, ortofoto xəritələr, rəqəmsal sərhəd xəritələri, çoxölçülü məkansal məlumatlar və digər komponentlər dayanır. Bu isə müasir tələblərin dəyişməsini və yenilənməsini zəruri edir”.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbərinin müavini, WUF13-ün milli koordinatorunun müavini Gülşən Rzayeva isə çıxışında deyib ki, 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) 25 mindən çox iştirakçı qatılacaq: “Regional təmsilçilik baxımından əvvəlki forumlarda ən çox iştirakçının Afrikadan olduğu görünür. Ümumilikdə, regional təmsilçilik çox rəngarəngdir və biz ümid edirik ki, bu dəfə də ölkələr forumda fəal iştirak edəcəklər”.

İclasda digər çıxış edənlər də mövzu ilə bağlı fikirlərini bildiriblər. Sonda toplantının yekun sənədi qəbul olunub.

Qeyd edək ki, Bakıda təşkil olunan iclasda TDT “Xəritəçilik İşçi Qrupu”nun 30 sentyabr - 1 oktyabr 2024-cü il tarixlərində Ankarada keçirilmiş 1-ci görüşündə müəyyən edilən hədəflərin icra vəziyyəti və gələcəkdə bu sahədə əməkdaşlığın gücləndirilməsi, yeni hədəflərin müəyyənləşdirilməsi və onların həyata keçirilməsi imkanları nəzərdən keçirilib.

Bu tədbir 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Ətraf Mühit Günü və Ümumdünya Şəhərsalma Forumu (WUF13) ərəfəsində ölkəmizin geodeziya, kartoqrafiya və coğrafi informasiya sistemləri sahəsində əməkdaşlığını gücləndirməklə yanaşı, ətraf mühitin mühafizəsi və davamlı idarə olunması naminə atdığı ardıcıl addımları nümayiş etdirir.

# “Yaşıl Enerji Dəhlizi”ndə yeni mərhələ

## “Enerji Dialoqu”nda yer alan Avropa ölkələrinin sırası genişlənir

Azərbaycan və Avropa İttifaqı (Aİ) Avropaya elektrik enerjisi ixracını təmin edəcək “Yaşıl Enerji Dəhlizi” layihəsinin icrası barədə müzakirə aparıb. Energetika naziri Pərviz Şahbazovun Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Mariyana Kuyundziç ilə keçirilən görüşündə enerji sahəsində birgə əməkdaşlığın vəziyyəti və inkişaf perspektivlərinə toxunulub. M.Kuyundziç Azərbaycanın Avropanın enerji təchizatındakı etibarlı və sadiq tərəfdaş olduğunu vurğulayaraq hazırda əməkdaşlığın yeni dövürünün - bərpaolunan enerji sahəsində fəaliyyətin başlandığını, “Yaşıl Enerji Dəhlizi” layihəsinin bölgədə dekarbonizasiya proseslərinin və enerji səmərəliliyinin güclənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycanın fəal rol aldığı “Enerji Dialoqu” formatının regional əməkdaşlıq əlaqələrinin genişlənməsinə təkan verəcəyi və yeni “yaşıl” “Cənub Qaz Dəhlizi” ailəsinin formalaşacağı istisna edilməyib.

### Dörd ölkənin təşəbbüsü ilə...

Qeyd edək ki, “Yaşıl Enerji Dəhlizi” layihəsi 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması ilə ərsəyə gəlib. Dörd ölkənin imzaladığı sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında tərəflər arasında yeni enerji ənəkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və “yaşıl enerji”nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Birgə müəssisənin yaradılmasından sonra “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nin (“Qara dəniz” kabeli) icrasını təmin etmək üçün Rumıniyanın “Transelectrica”, Azərbaycanın “Azərenerji” ASC, Gürcüstanın “Elektrik Şəbəkəsi” və Macarıstanın “MVM” şirkəti arasında da saziş imzalanıb. “Yaşıl enerji” həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və türk dövlətləri olan Qazaxıstan və Özbəkistan dəhlizdə yer almaq niyyətlərini bəyan edib. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı “Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan “təmiz” elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur.

### Cənub Qaz Dəhlizinin “yaşıl marşrutu”

Dördlük formatı ilə regionda əməkdaşlığın genişlənməsini təşviq edən “yaşıl enerji” siyasəti Avropa İttifaqının marağına səbəb olduğundan layihəyə qoşulanlar sırasında Bolqarıstan da yer aldı. 2024-cü ildə Bolqarıstanın ardınca, Serbiya “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi”nə qoşulmaq istəyini rəsmi şəkildə bəyan etdi, ənənəvi yanacaq tədarükü ilə yanaşı, Azərbaycanın bərpaolunan enerji mənbələrinin tədarükündə tərəfdaş olmaq istəyini açıqladı. Həmçinin, İtaliyanın da alternativ enerji nəqli layihəsində yer almaq niyyətindən sonra Aİ şirkətləri “yaşıl enerji”nin istehsalı üzrə infrastruktur, emal və təchizat zəncirinin formalaşması üçün prosesə cəlb olundu. Azərbaycanın Bərpa Olunan Enerji üzrə Dövlət Agentliyi ilə Aİ-nin “WindEurope” Assossasiyası və Azərbaycanın Energetika Nazirliyi ilə Aİ-nin “Nobel Energy” şirkəti arasında anlaşma memorandumlarının imzalanması “yaşıl güclər”in Avropaya nəqli üçün səyləri artırdı. Bu, eyni zamanda, birmənalı olaraq Aİ dövlətlərinin Azərbaycanın başlatdığı yeni enerji bumu və ya “yaşıl enerji” proqramında müttəfiq olmaq maraqlarını ifadə etdi. 2024-cü il martın 1-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində təşkil edilən Yaşıl Enerji Şurasının iclasında Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkət tərəfindən imzalanan yeni sənədlər əməkdaşlığı həlledici mərhələyə daşıdı. 2025-ci il aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 11-ci və Yaşıl Enerji Məşvərət Şurasının 3-cü iclaslarında isə “yaşıl enerji” sahəsində yeni sazişin imzalanması ilə Aİ-Azərbaycan “yaşıl enerji” tərəfdaşlılığı iqtisadi baxımdan tam legitimləşdi.




### Ərəb dövlətləri də “yaşıl ittifaqa” qoşulur

Yeri gəlmişkən, ərəb dövlətləri də “yaşıl enerji”nin türk koalisiyasına qoşulmağı planlaşdırır. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda “yaşıl layihələr”də təmsil olunur. Bu baxımdan Qara dəniz kabeli layihəsinin gələcəkdə Yaxın Şərq regionunu da əhatə edəcəyini və Şərq-Qərb enerji dəhlizinin formalaşacağını söyləmək mümkündür. “Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı”nın imzalanması da bunu deməyə əsas verir.

Nəticədə böyük karbohidrogen tədarükçüləri olan 3 türk dövləti və onların müttəfiqinə çevrilmiş Səudiyyə Ərəbistanı növbəti onilliklər ərzində qlobal neft istehlakının azalmasını fonunda ənənəvi enerjini kompensasiya edə biləcək “yaşıl enerji” potensialını qlobal bazarlara çıxaracaq. Bununla da, neft-qaz ölkələri kimi tanınmış bu dövlətlərin növbəti mərhələdə əsas vizyonu “yaşıl enerji”nin ixracatçıları kimi formalaşacaq.

Beləliklə, Azərbaycanın 3 il əvvəl əsasını qoyduğu “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”ə qoşulan Aİ və digər region ölkələrinin sırasının genişlənməsi rəsmi Bakının həmişə olduğu kimi enerji təşəbbüskarlığına beynəlxalq dəstəyi artırır. Əlalxüsus da Azərbaycanın bərpaolunan enerji potensialının Avropa İttifaqına nəqli üçün beynəlxalq konsorsium formalaşdırır. “Yaşıl enerji”nin Aİ bölgəsinə 2027-ci ildə ixracına başlanması planlaşdırılır ki, bu da Azərbaycanın bölgədə yeni ixrac flaqmanına çevrilməsinə səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Azərbaycanın suverenliyini təhdid edən bu antimilli tandem indi suallara bir yerdə cavab verəcək

Ramiz Mehdiyevlə AXCP sədri Əli Kərimlinin adlarının bir müstəvidə və bir-biri ilə əlaqəli şəkildə diqqət mərkəzinə gəlməsi Azərbaycan dövlətinin necə böyük təhlükə ilə üz-üzə qalmasının göstəricisidir. Əslində, bu faktı aşkarlamaqla Dövlət Təhlükəsizliyi Xidməti tarixi bir missiyanı yerinə yetirdi. Azərbaycanın suverenliyini təhdid edən bu antimlli tandem indi suallara bir yerdə cavab verəcək. Prosesləri izlədikcə sual vermək istəyirsən. Bu dövlət, bu vətən sizə nə etmişdi cənablar? Niyə onu özgələrə möhtac etmək üçün çalışırdınız? 300 illik siyasi rəzalətdən 5 ildir ki, qurtulmuşuq. Qarabağın işğaldan azad edilməsi bu millətin ən böyük arzusu idi. Gerçəkləşmiş bu arzunu niyə qaralamağa çalışdınız?

Bu təkcə hüquqi tədbir deyil. Söhbət təkcə dövlətin təhlükəsizliyindən getmir. Millətin maraqlarından gedir. Bu mənada Təhlükəsizlik Xidmətinin həyata keçirdiyi son tədbirlərin mənəvi əhəmiyyəti çox böyükdür. Hədəfdə Vətən və Dövlət varsa, o hədəfə atılan bütün daşlar əmin olun ki, millətin sinəsinə dəyəcək. Millət öz canını sipər edib öz Vətənini və Dövlətini qoruyacaq. Xalq Şairi Məmməd Arazın misralarını xatırlayıram: “İndi öz hökmünlə ev dustağı sən, / Üzü dönüklərə dönükdür bu xalq...” Əlbəttə, ən həlledici məqamlarda xalq üzü dönüklərə dönük olur.

Bu gün gündəmdə olan məsələ hakimiyyət məsələsi deyil, məsələnin heç partiylararası münasibətlərə də aidiyyəti yoxdur. Bunu iqtidar-müxalifət məsələsi də hesab etmək doğru olmaz. Bu, Dövlət və Vətən məsələsidir. Dövlətə atılan bumeranqlar ən sərt şəkildə geri qayıdır. Müstəqil dövlətimizin siyasi sisteminə, yaxud üç yüz ildən sonra əbədi və qorxulu düşmənlərini məğlub etmiş Vətənin maraqlarına qarşı çıxmağı yalnız ümumi adı beşinci kalon olan fərdlər edə bilərdi...



*Elnarə Akimova,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü,*
*filologiya elmləri doktoru*

### Dual təhsil sistemi dünya təcrübəsində...

# Peşə təhsilimiz yeni modelə keçir

## Hansı məqamlar nəzərə alınmalıdır?

Son zamanlar ölkəmizdə dual təhsil modelinə maraq artmaqdadır. Dual təhsil nəzəri dərslərlə praktiki iş təcrübəsini birləşdirən təhsil modelidir. Bu sistemdə tələbə tədris prosesinin müəyyən hissəsini təhsil müəssisəsində nəzəri biliklər alaraq, digər hissəsini isə müəssisə və ya şirkətdə real iş şəraitində praktik bacarıqlar qazanaraq keçir. Yəni təhsil və istehsalat paralel şəkildə həyata keçirilir.

Mütəxəssislər dual təhsilin ilk növbədə praktiki biliklərin artırılmasında mühüm rol oynadığını qeyd edirlər. Bundan başqa, dual təhsili bitirənlərin əmək bazarına uyğunlaşması daha asan olur. Çünki onlar artıq peşə təcrübəsi qazanmış olurlar.

### Dual təhsildə normativ-hüquqi baza hazırlanacaq

Peşə Təhsili üzrə Dövlət Agentliyinin Peşə təhsili sektorunun aparıcı məsləhətçisi Rəbiyyə Museyibzadə bildirib ki, 2027-2030-cu illərdə dual təhsil (iş yerində öyrənmə) üzrə normativ-hüquqi bazanın hazırlanması planlaşdırılır.

Onun sözlərinə görə, dual təhsil üzrə tənzimləyici normativ-hüquqi bazanın olmaması müəyyən çətinliklər yaradır: “Bu çətinliklərin aradan qaldırılması istiqamətində 2027-2030-cu illər ərzində sözügedən təhsil sistemində normativ-hüquqi bazanın hazırlanması planlaşdırılır. Bunun üçün ilk növbədə dual təhsilin “Peşə təhsili haqqında” Qanuna inteqrasiya edilməsi lazımdır. Həmçinin dual təhsilin keçirilməsi üzrə çərçivə sənədlərin hazırlanması, peşə təhsili müəssisələrinin və işəgötürənlərin öhdəliklərinin müəyyənləşdirilməsi, təhsilalanların və təhsilverənlərin əməyinin ödənişi üzrə tənzimləyici qaydaların tərtib edilməsi, keyfiyyətin ölçülməsi üzrə mexanizmlərin müəyyənləşdirilməsi, təhsilalan və təhsilverənlərin etik davranış kodeksinin hazırlanması əsas hədəflərdəndir”.

Təhsil üzrə ekspert Elçin Əfəndi “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, ölkəmizdə peşə təhsilinə tələbatın son beş ildə iki dəfə artması, yeni peşə mərkəzlərinin açılması, qadınların iştirak payının 39 faizə yüksəlməsi və regionlarda təlim infrastrukturunun genişlənməsi göstərir ki, sistem kəmiyyət artımını artıq tamamlayır və keyfiyyət mərhələsinə daxil olur: “Bu mərhələdə planlaşdırma, monitorinq, analitika və icra funksiyalarının daha dəqiq bölünməsi tələb olunur və aparılan struktur dəyişikliyi məhz bu ehtiyacdan doğur. “Təhsil haqqında” Qanunun 5-ci maddəsi təhsilin məqsəd və prioritetlərinə uyğun olaraq vahid dövlət siyasətinin qurulmasını tələb edir. Peşə təhsili ilə bağlı normativ sənədlərdə də siyasətin müəyyənləşdirilməsi ilə icranın ayrı qurumlar tərəfindən həyata keçirilməsi prinsipi təsbit edilir. Nazirlik daxilində strateji bölmənin yaradılması bu hüquqi və funksional bölünməni daha aydın edir, siyasətin formalaşdırılmasını mərkəzləşdirir və analitik qərarverməni gücləndirir. İcraedici qurumun fəaliyyətinin davam etməsi isə həm əməliyyat çevikliyini qoruyur, həm də qanunvericiliyin tələb etdiyi “əməliyyat-icra” modelini təmin edir”.

### Dual təhsilin əhəmiyyətləri

E.Əfəndi qeyd edib ki, dual təhsil uzun müddətdir İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ölkələrində tətbiq olunan idarəetmə modelinə uyğunluq yaradır və təhsilin bütün pillələri arasında koordinasiyanın gücləndirilməsi baxımından mütərəqqi addımdır: “Müsbət tərəflərdən biri odur ki, yeni struktur ixtisasların planlaşdırılması prosesində analitikanın rolunu artırır. Hazırkı statistik göstəricilər ölkənin qeyri-neft sektorunda orta ixtisaslı kadrlara tələbatın ilbəil artdığını göstərir; sənaye, aqrar və xidmət sahələrində 2023-2024-cü illər dövründə peşə təhsili tələb edən vakansiyaların sayında 11 faiz artım qeydə alınıb. Analitika və planlaşdırma funksiyalarının nazirlik səviyyəsində gücləndirilməsi ixtisasların məzmununun əmək bazarına uyğunlaşdırılmasını sürətləndirə bilər. Bu, xüsusilə regionlarda yeni sənaye zonalarının, aqrar parkların və texnoloji məkanların fəaliyyətə başlaması fonunda vacibdir. İxtisas xəritələrinin yenilənməsi və tələb-təklif balansının daha dəqiq hesablanması kadr hazırlığının keyfiyyətinə birbaşa təsir göstərir”.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif və təhsil proqramlarının hazırlanması” istiqaməti üzrə hazırlanmışdır

### Peşə təhsili və müəssisə əməkdaşlığı dərindən qurulmalıdır

Ekspertin sözlərinə görə, dual təhsil modeli nəzarət mexanizmlərini mərkəzləşdirərək real sektorla bağlanan müqavilələrin icrasını, təcrübə proqramlarının effektivliyinin ölçülməsini və müəssisələrin prosesə nə dərəcədə cəlb olunduğunu izləməyi mümkün edir: “Dünya təcrübəsi göstərir ki, Almaniya, Avstriya və İsveçrə kimi ölkələrdə peşə təhsilinin uğuru məhz bu inteqrasiyanın dərinliyi ilə bağlıdır. Həmin ölkələrdə dual təhsil modeli nəticəsində gənclər arasında işsizlik 6-8 faiz səviyyəsindədir, halbuki OECD ortalaması 13 faizdir. Bu müqayisə onu göstərir ki, peşə təhsili və müəssisə əməkdaşlığı dərindən qurulmadıqca sistem real nəticə vermir. Struktur dəyişikliyinin potensial təsirlərindən biri də regionların inkişafında balansın güclənməsi ola bilər. Hazırda ölkədə 27-dən çox yeni peşə tədris mərkəzi fəaliyyət göstərir və tələbə axınının regionlara yayılması sosial-iqtisadi tarazlığa müsbət təsir göstərir. Nazirlik səviyyəsində siyasətin formalaşdırılması regionlar üzrə ixtisaslaşma, resurs bölgüsü və prioritet sektorların müəyyənləşdirilməsini daha dəqiq istiqamətləndirə bilər. Bu isə regionlarda işsizliyin azaldılması və yerli kadr potensialının gücləndirilməsi baxımından əhəmiyyətlidir”.

### Bu məqamlara diqqət edilməlidir...

Ekspert qeyd edib ki, dual təhsil sisteminin qarşısında ciddi çağırışlar qalmaqdadır: “Müəllim və ustad-müəllim çatışmazlığı hələ də həllini gözləyir. Hazırda peşə təhsili sektorunda çalışan pedaqoji heyətin 43 faizi ixtisasartırma təlimlərindən keçməyib və bu, keyfiyyət fərqlərinin əsas səbəblərindən biridir. Digər çağırış müəssisələrin prosesə cəlb edilməsinin hələ də qeyri-bərabər olmasıdır. Üçüncü çağırış peşə təhsilinin sosial imicidir, tələbə sayı artsa da, hələ də geniş ictimaiyyət bu modeli ikinci seçim kimi qəbul edir. Dördüncü çağırış ixtisasların müəyyənləşdirilməsində və kurikulumların yenilənməsində çevikliyin artırılmasıdır. Əmək bazarı sürətlə dəyişir, lakin tədris proqramlarının yenilənmə tempi bəzən gecikir. Struktur dəyişikliyi bu prosesi sürətləndirmək üçün mühüm imkandır”.

***Yeganə BAYRAMOVA***

# İstehsalın artırılması naminə

## Aqrar sahədə sığortalanan bitki növlərinin sayı 59-a çatdırılacaq

Aqrar Sığorta Fondu tərəfindən 2025-2026-cı illər əkin mövsümü üzrə meyvə bağlarının sığortalanma prosesinə başlanılıb. Dövlət sığorta mexanizmi çərçivəsində fermerlərin 41 növ bitkiçilik məhsulu sığorta olunacaq. Aqrar sığorta çərçivəsində alma, armud, gilas, albalı, şaftalı, nektarin, üzüm, alça, badam, çiyələk, ərik, fındıq, gavalı, heyva, xurma, qoz, limon, portağal, naringi və nar bağlarını müxtəlif risklərdən sığortalamaq mümkündür. Həmçinin buraya tərəvəz və bostan məhsulları, tarla bitkiləri, texniki bitkilər və digər növlər də daxildir.

Aqrar Sığorta Fondunun İdarə Heyəti sədrinin müşaviri Rəvan Səmədlinin sözlərinə görə, kənd təsərrüfatına marağın artması nəticəsində hər il minlərlə hektar meyvə bağları salınır və meyvəçilik sahəsi təkcə daxili bazarın təmin olunmasında deyil, həm də ixrac potensialının artırılmasında mühüm rol oynayır. Bu sahədə on minlərlə fermer və yerli sakin məşğul olur. Mövcud bağçılıq təsərrüfatlarının sahəsinin artması bu sahədə meydana çıxan risklər fonunda sığorta bazarının da genişlənməsinə səbəb olur, bitkiçilik məhsullarının sığortalanması üçün əlavə maliyyə vəsaitlərinə ehtiyac yaranır. Nəticədə aqrar sığorta mexanizmindən faydalanan fermer və təsərrüfatlarının sayı sürətlə artır. Fond tərəfindən indiyə qədər 20 milyon manatdan artıq sığorta ödənişi həyata keçirilib.

### Sığorta hadisəsi necə müəyyən edilir?

Aqrar sığorta sistemindəki qaydalara əsasən, meyvə bağları dolu, qasırğa, fırtına, sel və subasma, leysan yağışlar, şaxtavurma (donvurma), normadan artıq qar yağıntıları, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri, yanğın və dolu nəticəsində məhsulların keyfiyyət itkisi sığorta hadisəsi hesab edilir və bu təyinat üzrə risklər müəyyənləşir və sığorta məbləği hesablanır.

Sığorta haqqı meyvənin növünə, regiona və sığorta zərfinə uyğun olaraq dəyişir. Dövlətin 50 faizlik sığorta haqqı dəstəyi sayəsində fermer yalnız məbləğin yarısını ödəyir, qalan yarısı isə dövlət tərəfindən qarşılanır.

Bütün bu prosedurlar isə elektron portal vasitəsilə nizamlanır. Sığorta mexanizmindən istifadə edən fermerlərin sığortaya əlçatanlığının təmin edilməsi məqsədilə bütün prosedurlar tamamilə elektronlaşdırılıb. Fermerlərin hər birinin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) elektron kabineti yaradılıb. Onlar e-kabinet üzərindən öz təsərrüfatlarında baş vermiş risklər və təbii fəlakətlər, sığorta hadisələri barədə fonda zəruri məlumatları elektron müraciət qaydasında təqdim edir. Müvafiq komissiya müraciətləri araşdırdıqdan sonra sığorta məbləğinin verilib-verilməməsi barədə qərar çıxarılır və e-sistemdə yerləşdirilir. Sığorta məbləği təyin edilmiş fermerlər ödənişləri rəqəmsal üsulla əldə edirlər. Ümumilikdə, rəqəmsal ekosistemin fəaliyyəti sayəsində fermerlərin Aqrar Sığorta Fonduna və ya hansısa filialına gəlməsinə ehtiyac qalmır.



### Qanunvericiliyin təkmilləşdirilməsi sığorta bazarını genişləndirəcək

R. Səmədli bildirib ki, iqlim dəyişiklikləri fonunda aqrar sahədə baş verən hadisələr və digər amillər aqrar sığorta ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini zəruri etdiyindən yeni təkliflər hazırlanıb. Təkliflərə əsasən, fermerləri risklərdən qorunması ilə bağlı təkmilləşdirmələrin aparılması, yeni optimal risk mexanizminin tətbiqi nəzərdə tutulur ki, bu da sığorta olunan sahələrin və fermerlərin sayının artmasına səbəb olacaq. Xüsusilə də sığortalanan bitkilərin sayının artırılması, quraqlıq hadisəsinin aqrar sığorta mexanizminə daxil edilməsi və sığorta təminatının genişləndirilməsi nəzərdə tutulur. Beynəlxalq təcrübədə aqrar sahədə quraqlıq hadisələrinə görə, fermerlərə güzəşt və xüsusi sığorta dəstəyi verilsə də, ölkəmizdə bu mexanizm tətbiq olunmur. Son illərdə suvarma suyu ilə bağlı problemlərin artması bu sahədə çətinlikləri xeyli artırır.

Ona görə də, fermerlərin üzləşdiyi bu vəziyyəti nəzərə alaraq hökumət quraqlığın təminat altına alınmasını planlaşdırır. Quraqlıqla bağlı sığortalanmanın tətbiq olunması fermerlərin əkinə olan marağının artmasına səbəb olacaq və əkinçilik və bağçılıqda yeni sahələrin yaranmasına səbəb olacaq. Nəticədə ölkəmizin kənd təsərrüfatı sektorunda məhsul istehsalının artması da təmin olunacaq. Hökumət aqrar sahədə əlavə dəyərin həcmini daha da artırmaq, aqrar ixracı böyütmək üçün subsidiyalaşma və sığortalanma amilinə xüsusi diqqət ayırmaq niyyətindədir və bu məqsədlə sığortalanan bitki növlərinin sayı növbəti mərhələdə 59-a çatdırılacaq.

Həmçinin doluvurma ilə bağlı sığorta mexanizminin tətbiqinin də genişləndirilməsi nəzərdə tutulur.

### İlk dəfə 321 min manat dəyərində aqrar sığorta ödənişi təyin edilib

Hazırda fermerlərin üzləşdiyi ən problemli hallardan biri də məhz dolu hadisələridir. Yeri gəlmişkən, cari ilin noyabr ayında Aqrar Sığorta Fondu tərəfindən ölkədə ilk dəfə olaraq meyvə bağlarında doludan keyfiyyət itkisi üzrə sığorta ödənişi həyata keçirilib. Tərtər rayonun Kəbirli kəndində yerləşən “Aqropat” MMC şirkətinə məxsus meyvə bağları bu ilin may ayında dolu yağması nəticəsində ciddi təsirə məruz qalıb. Dolu nəticəsində təsərrüfatda həm miqdar, həm də keyfiyyət itkisi baş verib. Aqrar Sığorta Fondu tərəfindən aparılan hesablamalar əsasında təsərrüfata, ümumilikdə, 321 min 602 manat aqrar sığorta ödənişi təyin edilib. Bu ödəniş indiyədək Aqrar Sığorta Fondu tərəfindən meyvə bağlarına ödənilən ən böyük sığorta ödənişi olmaqla yanaşı, ümumiyyətlə doludan keyfiyyət itkisi üzrə ilk ödənişdir.

Dövlət aqrar sığorta mexanizmi çərçivəsində il ərzində dövlətdən sığorta alan fermerlərin sayı minlərlədir. Sığorta məbləği isə bağ, bostan və tarlanın sahəsinə görə, dəyişir. Min manat sığorta alan da var, 50 min manat alan da. Hətta 100-150 min məbləğində sığorta vəsaiti əldə edən fermerlər də mövcuddur. Bu günlərdə Aqrar Sığorta Fondu tərəfindən meyvə bağları üzrə növbəti iri məbləğdə sığorta ödənişi həyata keçirilib ki, bu da Xaçmaz rayonunun Cığatay kəndində yerləşən “Trek Service Engineering” MMC-yə məxsus badam bağıdır. Bağda sel-subasma nəticəsində yaranmış zərərə görə 200 min  manat məbləğində sığorta ödənişi edilib. Bu, aqrar sahədə sığorta mexanizminin əlçatanlıq göstəricisinin təzahürü olmaqla, fermerlərə dövlət dəstəyinin nümunəsi sayıla bilər.

***E.CƏFƏRLİ***

# Müasir dövlət quruculuğu siyasətinə töhfə

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) nəfis tərtibatlı yeni nəşri çapdan çıxıb. “Dövlət Qulluqçuları üçün İngilis Dili” adlanan kitabın funksionallığı və məzmunu təhsil sahəsindəki yeni standartlara və həmçinin Azərbaycanın dövlət idarəçiliyinin modernləşdirilməsi prioritetinə tam uyğundur. Tədris vəsaitinin DİA müəllimləri tərəfindən hazırlanması müasir Azərbaycan idarəçiliyi ideologiyasına uyğun silsilə tədris resurslarının yaradılması istiqamətində ilk mühüm addım kimi qiymətləndirilir.




**Azərbaycanda dövlət idarəçiliyinin yeni mərhələsi**

Azərbaycanın müasir dövlət idarəçiliyi modeli insan kapitalının gücləndirilməsi, innovativ yanaşmaların tətbiqi və dünya ölkələri ilə inteqrasiya kimi prioritet məqsədlər əsasında qurulub. Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan əsaslı institusional islahatlar, ölkənin beynəlxalq qurumlarla əməkdaşlığının genişləndirilməsi dövlət qulluqçularının xarici dillərə, xüsusilə də ingilis dilinə yüksək akademik və peşəkar səviyyədə yiyələnməsini vacib zərurətə çevirmişdir.

Gənc və müstəqil dövlətimizin dayanıqlı inkişafına nail olmaq məqsədilə son illərdə Azərbaycanın təhsil sahəsində məzmun və formanın qabaqcıl dünya standartlarına əsaslanaraq təkmilləşdirilməsi baxımından bir sıra yeniliklər tətbiq olunmaqdadır. Məqsəd yalnız təhsil infrastrukturunu yeniləmək deyil, həmçinin müasir tələblərə cavab verən, yeni fikir, düşüncə tərzinə malik mütəxəssislər yetişdirmək, müasir dövrün idarəçilik bacarıqlarına yiyələnmiş yüksək potensiallı gənc kadrlar hazırlamaqdır.

Prezident İlham Əliyevin çıxışlarında dəfələrlə qeyd olunduğu kimi, yüksək səviyyəli bilik və bacarıqlara yiyələnmiş insan kapitalı Azərbaycan dövlətinin dayanıqlı inkişafının əsasını təşkil edir. Dövlətimizin başçısı təbii resursların müvəqqəti xarakterli olmasını, insan kapitalının isə uzunmüddətli dayanıqlılığını vurğulamışdır ki, bu da öz növbəsində Azərbaycanda dövlət idarəçiliyi sisteminin transformasiyası üçün yeni ideoloji əsası formalaşdırıb. Prezident İlham Əliyevin inkişaf strategiyasının əsas mahiyyəti hərbi güc, iqtisadi sistemin inkişafı, informasiya texnologiyası sahəsindəki nailiyyətlərdən innovasiyalı, sosial orientirli mərhələyə keçid edərək insan kapitalını formalaşdırmaqdır. “Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) uzun illərdir ki, ölkənin dövlət idarəçiliyi üçün peşəkar kadrların hazırlanmasında aparıcı rol oynayır. Burada təhsil alanlar - bakalavrlar, magistrlər, doktorantlar və həmçinin peşə kompetensiyalarının təkmilləşdirilməsi üçün əlavə təhsilə cəlb olunmuş dövlət qulluqçuları yalnız nəzəri biliklər deyil, həm də praktiki idarəçilik bacarıqları qazanırlar. Xüsusilə vurğulamaq istərdik ki, Akademiya burada aparılan yüksək keyfiyyətli təlim və tədris nəticəsində ölkənin gələcək idarəçilərini yetişdirən strateji mərkəzə, elm-bilik ocağına çevrilib.

**Dövlət qulluqçuları üçün mühüm nəşr**

Akademiyanın rektoru, akademik Urxan Ələkbərovun təşəbbüsü, Dillər kafedrasının müdiri, dosent Ülkər Şəfiyevanın bilavasitə rəhbərliyi və müəllifliyi ilə kafedranın müəllimləri Esmira İsmayılova, Həcər Abdullayeva və Məryam İsgəndərlinin də həmmüəllifləri olduğu “Dövlət Qulluqçuları üçün İngilis dili” adlı dərslik müasir və qloballaşan dünyada qarşıya qoyulan hədəflərə çatmaq üçün dövlət idarəçiliyi və dövlət qulluğu sahələrində fəaliyyət göstərəcək namizədlərin peşəkar mütəxəssislər kimi yetişdirilməsi istiqamətində atılmış böyük əhəmiyyətə malik mühüm addımlardan biridir. Kitab Azərbaycan dövlət idarəçiliyi reallığına uyğunlaşdırılmış, müasir dil tədrisi standartlarına cavab verən həm dil kompetensiyasını, həm də peşəkar ünsiyyət bacarıqlarını inkişaf etdirən çoxfunksiyalı müasir tədris vəsaitidir.

Dərslikdə dövlət orqanlarında istifadə edilən terminologiya, rəsmi yazışma standartları, diplomatik nitqlər və beynəlxalq əlaqələrə dair sənədlərdən nümunələr, real situasiyalarda istifadə olunan dil materialları, iclaslar, brifinqlər, hesabatlar və görüş simulyasiyaları modelləri əsasında hazırlanan oxu, yazı, dinləmə və danışıq bacarıqlarının təkmilləşdirilməsinə imkan verən tapşırıqlar beynəlxalq təcrübəyə əsaslanan tələbyönümlü və yaradıcı yanaşmaları əks etdirərək dərslərin daha innovativ və interaktiv təşkilinə geniş imkanlar yaradacaqdır. Yeni dərsliyin funksionallığı və məzmunu təhsil sahəsindəki yeni standartlara və həmçinin dövlət idarəçiliyinin modernləşdirilməsi prioritetinə tam uyğundur.

Tədris vəsaiti hazırda dövlət qulluğunda çalışan mütəxəssislərin ingilis dili bacarıqlarının peşəkar istiqamətdə təkmilləşdirilməsinə, həmçinin gələcəkdə dövlət orqanlarında fəaliyyət göstərəcək gənc kadrların ingilis dili bacarıqlarının formalaşdırılmasına imkan verən və Azərbaycanın milli dövlət idarəçiliyinin başlıca istiqamətlərini özündə birləşdirən ilk fundamental resurs kimi autentik dil materialları əsasında hazırlanıb.

**Dərsliyin gələcək dövlət idarəçilərinin hazırlanmasında əhəmiyyəti**

Xarici dillərə, xüsusilə ingilis dilinə, yiyələnmək qlobal informasiya axınına inteqrasiya baxımından dövlət qulluqçuları üçün mühüm şərtdir. Dövlət İdarəçilik Akademiyasının tələbələrinə ingilis dilinin məhz dövlət qulluğu kontekstində öyrədilməsi Azərbaycanın beynəlxalq arenada mövqelərinin daha da güclənməsinə xidmət edir. Gənc idarəçilərin beynəlxalq təşkilatlarla ünsiyyət qurmaq, qlobal layihələrin idarə olunmasında iştirak etmək, xarici tərəfdaşlarla yazışmalar aparmaq, beynəlxalq siyasi, hüquqi və iqtisadi terminologiyaya yiyələnərək nüfuzlu qlobal məlumat bazalarına birbaşa çıxış əldə etmək kimi bacarıqlara malik olması dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsində müstəsna rola malikdir. Bu səbəbdən bu yeni kitab yalnız bir dərslik deyil, həm də ölkənin idarəçilik sistemində insan kapitalının strateji inkişafına xidmət edən tədris vəsaitidir.

“Dövlət Qulluqçuları üçün İngilis dili” dərsliyi DİA-nın strateji missiyasına - ölkənin gələcək idarəçilərini hazırlamaq məqsədinə uyğun yaradılmış fundamental bir elmi-metodik resursdur. Bu təşəbbüs dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, şəffaflıq, çeviklik və qlobal rəqabətə dayanıqlılıq kimi prinsiplərə xidmət edir. Dərs vəsaitinin müəlliflərinin oxuculara ötürdüyü əsas ideya ondan ibarətdir ki, peşəkar dövlət qulluqçusunun formalaşması üçün ingilis dili bu gün seçim deyil, bu dildən səlis istifadə artıq müasir idarəçiliyin zərurətinə çevrilmişdir və bu kitab öz növbəsində müasir Azərbaycanın gələcək idarəçilərinin milli məfkurə və qlobal yanaşmaları özündə ehtiva edən düçüncə tərzini formalaşdıraraq yüksək ingilis dili bacarıqlarına malik kadrlar kimi yetişdirilməsi vasitəsi ilə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən milli dövlətçilik ənənələrinin gələcək nəsillərə ötürülərək daha da inkişaf etdirilməsinə mühüm töhfə olacaqdır.



*Həcər ABDULLAYEVA,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi*

# 5 saat bağlı qapılar arxasında...

## Moskva görüşü sülh vəd edirmi?

Ukrayna - Rusiya müharibəsinin dayandırılması ilə bağlı danışıqlar prosesinin növbəti raundu Moskvada baş tutub. Cenevrədə və Ər-Riyadda, ardınca isə Mayamidə keçirilən görüşün ardından ABŞ Prezidenti Donlad Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff Rusiyaya səfər edərək Rusiyanın dövlət başçısı Vladimir Putinlə görüşüb. Qeyd edək ki, görüşdə Putinin Xarici Ölkələrlə İnvestisiya və İqtisadi Əməkdaşlıq üzrə nümayəndəsi Kirill Dmitriyev, eləcə də prezidentin köməkçisi Yuri Uşakov iştirak ediblər. ABŞ nümayəndə heyəti ilə danışıqlar ərəfəsində Putin media nümayəndələri ilə mətbuat konfransı keçirərək Ukrayna ilə bağlı bir sıra vacib açıqlamalar verib. Təxminən beş saat davam edən görüşdə ABŞ-ın Ukrayna üçün sülh planı müzakirə edilib.

### Görüləsi çox iş var...

Rusiya KİV-lərinin məlumatına görə, görüşdən sonra əldə olunan qənaət tərəflərin münaqişənin sülh yolu ilə həll ideyasından uzaqlaşmayıblar. Bunu Kremldəki danışıqlardan sonra Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bildirib. O, müzakirə olunan sənədlərin məzmununu açıqlamayıb və ABŞ Prezidenti Donald Trampın Ukrayna üçün sülh planının ilk versiyasından sonra Rusiyanın daha dörd sənəd aldığını deyib. Uşakov əlavə edib ki, Moskva Vaşinqton tərəfindən hazırlanmış planın müəyyən müddəalarını qəbul etməyə hazırdır, lakin bəzi təkliflər Rusiya tərəfindən qəbul edilmir. Uşakov görüşü olduqca faydalı, məlumatverici və konstruktiv adlandıraraq qeyd edib ki, Putin və Trampın xüsusi nümayəndəsi Stiv Vitkoff konkret təkliflərlə yanaşı, ABŞ-ın Ukrayna münaqişəsinin həlli planının mahiyyətini müzakirə ediblər. Rusiya liderinin köməkçisi aydınlaşdırıb ki, əsas diqqət Ukraynadakı münaqişənin uzunmüddətli həllinə nail olmaq imkanlarına yönəlib. Uşakovun sözlərinə görə, sülh təşəbbüsləri kontekstində “görülməli çox iş var”.

Rusiya prezidentinin köməkçisinin bildirib ki, “hələ ki, kompromis tapılmayıb”. “Lakin bəzi təkliflər məqbul görünür, onlar müzakirə olunmalıdır. Bizə təklif olunan bəzi ifadələr qəbuledilməzdir. Buna görə də iş davam edəcək”, - deyə Uşakov bildirib.

Qeyd edək ki, Rusiya və ABŞ danışıqların mahiyyətinin detalları ilə bağlı açıqlama verməməklə bağlı razılığa gəliblər.



### Rusiya israr edir...

CNN-in məlumatına görə, nümayəndə heyətləri Ukraynanın NATO-ya qoşula bilməməsi məsələsini də müzakirə ediblər. Yayılan məlumatlarda o bildirilir ki, görüş zamanı Putin bir daha Avropanı ittiham edib - o, Ukraynanın müttəfiqlərini Rusiya üçün qəbuledilməz tələblər irəli sürməklə sülh prosesinə mane olmaqda günahlandırıb. Vurğulanır ki, Rusiya 28 maddəlik plana qayıtmaq istəyir. Üstəlik, Kreml döyüş meydanındakı üstünlüklərindən istifadə etməklə bu hüquqa malik olduğuna inanır. Bir çox siyasi şərhçilər bildirir ki, Amerika nümayəndə heyətinin Moskvaya səfəri ərəfəsində Rusiyanın Donetsk bölgəsində əsas strateji hədəf olan Pokrovskın “ələ keçirildiyini” elan etməsi də məhz bundan irəli gəlirdi.

### ABŞ-Ukrayna görüşü təxirə düşdü?

Ukrayna prezidenti Volodimir Zelenski Kremldə keçirilən görüşlə eyni vaxtda “Telegram”da yazıb ki, müharibənin bitməsi şərtləri ilə bağlı sadə qərarlar gözləmir. O, Kiyevin Rusiyadakı danışıqlardan sonra Amerika nümayəndə heyətindən siqnallar gözlədiyini söylədi. “ABŞ nümayəndə heyəti görüşlərdən dərhal sonra birbaşa bizə hesabat vermək istəyir. Növbəti addımlar bu siqnallardan asılıdır”, - deyə Zelenski bildirib və Ağ Ev prezidenti Donald Tramp da daxil olmaqla, ABŞ nümayəndələri ilə tezliklə görüşün keçiriləcəyini təklif edib. Görüş ərəfəsində Ukrayna Prezidenti Volodimir Zelenski bildirmişdi ki, Ukrayna Rusiyadakı görüşdən sonra Amerika nümayəndə heyətindən siqnallar gözləyəcək. “ABŞ nümayəndə heyəti görüşlərdən dərhal sonra bizə hesabat vermək istəyir. Növbəti addımlar bu siqnallardan asılıdır”, - deyə prezident vurğulamışdı. Zelenski qeyd etmişdi ki, Ukrayna Amerika nümayəndə heyəti ilə “çox tez” görüşməyi planlaşdırır - o, mümkün əlaqələrin səviyyəsinin danışıqlardan sonra alınan siqnallardan asılı olacağını söyləmişdi. Onun sözlərinə görə, siqnallar qlobal və sürətli qərarlar qəbul etməyə imkan verərsə, danışıqların səviyyəsi daha yüksək olacaq. Axios isə məlumat yaymışdı ki, amerikalı nümayəndələr Putinlə görüşdən dərhal sonra dekabrın 2-də Avropa ölkələrinin birində (çox güman ki, İrlandiyada) Ukrayna prezidenti ilə görüşəcəklər. Sonradan isə görüşün 3 dekabra planlaşdırıldığı bildirdi - Fransalı həmkarı Emmanuel Makronla keçirdiyi brifinq zamanı Ukrayna Prezidenti Parisdə Ukrayna nümayəndə heyətinin sülh planı ilə bağlı Amerika tərəfi ilə danışıqlar barədə ona hesabat verəcəyini qeyd etdi.

Amma artıq bu xəbər də təkzib olunub - Ukrayna Prezidenti amerikalıların dərhal Ukraynaya gəlməyə hazır olduğundan əmin deyil. UNIAN xəbər verir ki, Zelensky bu açıqlamanı İrlandiyanın Baş naziri Mikal Martin ilə Dublində birgə mətbuat konfransı zamanı verib. Zelenskidən yaxın günlərdə ABŞ-ın xüsusi elçisi Stiv Vitkoffla görüşmək planlarının olub-olmadığı soruşulub - dövlət başçısı bildirib ki, əgər sadəcə sözlərlə deyil, real nəticələr gözlənilə biləcəyi situasiya varsa, Ukrayna görüşməyə hazırdır. “Biz onu Ukraynada qəbul etməkdən çox məmnun olardıq, amma yaxın bir neçə gün ərzində gəlməyə hazır olduqlarından əmin deyiləm. Amma kim bilir? Gözləmək istəyirəm”, - deyə Zelenski bildirib.

Eyni zamanda, prezident Cenevrə və Mayamidə keçirilən iki görüşdə Ukrayna və Amerika nümayəndə heyətləri tərəfindən hazırlanmış 20 bəndin təfərrüatlarını açıqlamağa hazır olmadığını bəyan edib.

**SADİQ**

# Ər-Riyad görüşü də sülhü təmin edə bilmədi...

**Pakistan - Əfqanıstan qarşıdurmasında stats-kvo davam edir**

Aylardır davam edən Pakistan - Əfqanıstan qarşıdurması yenə də nəticələnmədi. Belə ki, bir neçə gün öncə, İslamabad və Kabil arasında baş tutan sərhəd danışıqlarında razılaşma əldə olunmayıb.

"Dawn"un məlumatına görə, Pakistan və Əfqanıstan rəsmiləri arasında Ər-Riyadda Səudiyyə Ərəbistanının vasitəçiliyi ilə keçirilən qapalı danışıqlar iki ölkə arasında münasibətlərin normallaşdırılmasında irəliləyiş əldə etməyə imkan verməyib. İslamabad və Kabil komporomis əldə edə bilməyiblər - eyni zamanda, sərhədyanı terrorizm probleminin həllində qarşılıqlı güzəştə getməkdən imtina ediblər. Nəşrin qeyd etdiyi kimi, danışıqlar zamanı Pakistan Səudiyyə Ərəbistanının Əfqanıstanla sərhəd ticarətini bərpa etmək təklifini rədd edib. Pakistanın Əfqanıstanla ticarət əlaqələrinin gələcək perspektivləri ilə bağlı mövqeyini izah edən Baş nazirin müavini və xarici işlər naziri İshaq Dar bildirib ki, İslamabad tezliklə bu ölkəyə vacib qida məhsullarının tədarükünə icazə verə bilər, lakin bu, yalnız BMT-nin tələbi ilə mümkündür. Onun sözlərinə görə, "İslamabadın Əfqanıstana humanitar yardım göstərməyə müsbət yanaşmasına baxmayaraq, Kabil Əfqanıstan torpağında fəaliyyət göstərən və Pakistana hücumlar həyata keçirən terrorçulara qarşı heç bir tədbir görmür".

## Əfqanıstan nə istəyir?

Xatırladaq ki, oktyabrın 9-da Pakistan təhlükəsizlik rəsmilərinin verdiyi məlumata görə, Əfqanıstan sərhədi yaxınlığında silahlıların hücumu nəticəsində azı 11 pakistanlı hərbçi həyatını itirmişdi. Bununla başlanan toqquşmanın sonradan miqyası böyüdü - "Taliban"ın rəhbərlik etdiyi Əfqanıstan hökuməti isə Pakistanı hava məkanını pozmaqda ittiham etdi. Bildirildi ki, Pakistan qüvvələri təxminən 2600 kilometr uzanan şərti sərhəd olan Durand xətti yaxınlığındakı bazara zərbələr endirib. Sonrakı günlərdə "Taliban" qüvvələri bir neçə istiqamətdən Pakistanın sərhəd mövqelərinə hücum etsə də, geri oturduldu. Pakistan ordusu şimal-qərbdəki Xayber Paxtunxva əyalətindəki Kurram Agentliyindəki nəzarət məntəqələrinə edilən hücuma Əfqanıstan ərazisindəki terrorçu qrupların mövqelərinə zərbə endirməklə cavab verdi. Pakistan Xarici İşlər Nazirliyi daha sonra Əfqanıstanla müvəqqəti atəşkəs barədə razılığa gəldiyini açıqladı.

Münaqişənin başlanma səbəbi isə İslamabadın Əfqanıstanı "Təhrik-e Taliban"a yardım etməsini dayandırmaqla bağlı tələbi olmuşdu. Qeyd edək ki, "Taliban" 2021-ci ildə hakimiyyətə qayıtdıqdan sonra Əfqanıstan və Pakistan arasında sərhəd münaqişələri dəfələrlə alovlanıb. Pakistan hökuməti "Taliban"ı İslamabadı təhdid edən "Təhrik-e-Taliban" hərəkatına sığınacaq verməkdə ittiham edir. Qruplaşmanın son dövrlərdə Pakistan təhlükəsizlik qüvvələrinə hücumları artırıblar. Bu il dərc edilən BMT hesabatında yaraqlı dəstənin de-fakto hakimiyyətdən - Kabildəki Taliban hökumətindən əhəmiyyətli dərəcədə logistik və əməliyyat dəstəyi aldığı bildirilir. Məlumata görə, bu ilin yanvar ayından 15 sentyabra qədər yaraqlıların hücumları nəticəsində 311 Pakistan əsgəri və 73 polis əməkdaşı da daxil olmaqla 500-dən çox insan həlak olub. Kabil rejimi Pakistanın terrorizmlə mübarizə tələblərini tam yerinə yetirməkdə hələ də istəksizdir.



Qeyd edək ki, münaqişə başlandığı gündən etibarən beynəlxalq diqqət mərkəzindədir. Hələ ilk günlərdə ABŞ Prezidenti Donald Tramp bəyan etmişdi ki, Pakistan ilə Əfqanıstan arasında davam edən hərbi qarşıdurmanı nizamlaya biləcəyinə ina-

## Nəticəsiz görüşlər...

nır. "Mən eşitmişəm ki, hazırda Pakistanla Əfqanıstan arasında müharibə gedir. Mən indi başqa bir münaqişə ilə də məşğulam, çünki münaqişələrin həlli sahəsində yaxşıyam," - deyə Tramp jurnalistlərin suallarını cavablandırarkən bildirib.

Qətər və Səudiyyə Ərəbistanının vasitəçiliyi ilə münaqişə tərəfləri həmin ay qüvvədə olan müvəqqəti atəşkəs razılaşmasına nail olublar. Sonrakı mərhələdə isə iki ölkə arasında danışıqların müxtəlif raundları baş tutub. Tərəflər arasında baş tutan ilk iki danışıqlar prosesi də səmərəsiz olub - 18-19 oktyabrda Dohada, 25-30 oktyabr tarixlərində isə İstanbulda keçirilən görüşşlərin ən mühüm nəticəsi atəşkəsin əldə olunmasıdır. Tərəflər atəşkəsi davam etdirmək barədə razılığa gəlsələr də, əsas nəticəyə nail olmaq üçün yenidən görüşə ehtiyac duyulurdu. Beləliklə, Səudiyyə Ərəbistanının ev sahibliyi etdiyi görüş də nəticəsiz yekunlaşıb.

## Əfqanıstan yeni "yol" axtarışındadır...

Ciddi gərginliyə baxmayaraq, Əfqanıstanın Pakistandan iqtisadi "asılılığı" da mövcuddur - Pakistanla münasibətlərin kəsilməsi Talibanı Karaçi və Qvadar limanlarına çıxışdan məhrum edəcək ki, bu da kövrək Əfqanıstan iqtisadiyyatına ciddi zərbə vuracaq. Bu vəziyyət təkcə Hindistana (Əfqanıstanda siyasi təsirini genişləndirmək və Pakistana təzyiq göstərmək baxımından) deyil, həm də digər region ölkələrinə (Əfqanıstanla milyardlarla dollarlıq ticarət dövriyyəsi və Karaçi və Qvadarı əvəz edə biləcək limanları ilə) fayda verir. ilk baxışda bu minimal iqtisadi "fayda" da heç bir dövlətin marağında deyil - çünki Əfqanıstandakı hər hansı bir qeyri-sabitlik bütün Yaxın Şərq, Orta Asiya və bölgənin təhlükəsizliyinə təsir göstərir.

Yayılan məlumatlarda Əfqanıstanın bu münaqişəni kənar təsirlər nəticəsində yekunlaşdırmadığı da var. Bildirilir ki, Əfqanıstan məhz bəzi region dövlətlərinin təsiri ilə "yeni ticarət yolları" qurmaq haqda planlar hazırlayır. Bu yolla taliban özünün "iqtisadi tarazlığını" Pakistandan kənarda formalaşdırmaq istəyir. Kabil indi alternativ marşrutlara diqqət yetirir - Hindistanın dəstəklədiyi İranın Çabahar limanından istifadənin artması da bunu sübuta yetirir. Son altı ayda Əfqanıstanın İranla ticarəti 1,6 milyard dollara çatıb ki, bu da Pakistanla, ümumilikdə, olan ticarəti üstələyib.

Pakistanın müdafiə naziri Xavca Asif bildirib ki, Əfqanıstanın qərarı ölkə iqtisadiyyatına zərər verməyəcək. O qeyd edib ki, "Əfqanıstanın istənilən liman vasitəsilə və istənilən ölkə ilə ticarət etmək hüququ var".

Buna baxmayaraq, Pakistan Əfqanıstan üçün dənizə ən sürətli yol olaraq qalır: yük maşınları təxminən üç gün ərzində Karaçi limanına çatır.

**P.İSMAYILOV**

# Diplomat, yoxsa dələduz?

*Mübariz FEYİZLİ*

Avropalı diplomat Josep Borrelin adı Azərbaycan cəmiyyətinə yaxşı məlumdur. O, Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi vəzifəsində çalışarkən öz məsuliyyətini unudaraq ermənipərəst mövqedən çıxış edir, ölkəmizlə bağlı heç bir əsası olmayan absurd iddialar səsləndirirdi. Aradan az vaxt ötəndən sonra isə onun özü sərt ittihamlarla üz-üzə qalıb.

Necə deyərlər, ilahi ədalət öz yerini tapıb. Belə ki, hazırda Josep Borrelin adı dələduzluqda hallandırılır. Bu günlərdə Avropa Komissiyası onun dələduzluq işində iştirakı məsələsini şərh etməkdən imtina edib. Aİnin rəsmi nümayəndəsi Anita Hipper Avropa Komissiyasında keçirilən brifinqdə Avropa Xarici Fəaliyyət Xidmətinin ofislərində axtarışların aparıldığını təsdiqləyib. Lakin o, davam edən istintaqa istinad edərək, axtarışların səbəbini və kim tərəfindən aparıldığını açıqlamaqdan imtina edib.

Avropa Prokurorluğunun məlumatı isə daha təfsilatlıdır. Prokurorluq aparılan istintaq tədbirlərini təsdiqləyib və qeyd edib ki, axtarışlar Brüggedəki Avropa Kollecinin bir neçə binasında, Brüsseldəki Avropa Xarici Əlaqələr Xidmətində və şübhəlilərin evlərində aparılıb. Araşdırma 2021-2022-ci illərdə Aİ üzv ölkələrindən gənc diplomatlar üçün təşkil olunan doqquz aylıq təlim proqramı ilə bağlı olunub.

Avropa Prokurorluğu bildirib ki, proqramın həyata keçirilməsi üzrə tender zamanı Maliyyə qaydalarının 169-cu maddəsi - ədalətli rəqabət prinsipi pozulmuş və tenderdə iştirak edən namizədlərdən birinə mövcud satınalmalar barədə məxfi məlumat ötürülmüş ola bilər. Axtarışlardan əvvəl hüquq-mühafizə orqanları bir neçə şübhəlini toxunulmazlıqdan məhrum etməyi tələb edib və bu tələb təmin olunub. İttihamların dövlət müqavilələrinin fırıldaqla bağlanmasını, korrupsiya, maraqların toqquşması və peşə sirrinin pozulması kimi halları əhatə etməsi mümkündür.

Belçikada nəşr olunan "Le Soir" qəzeti araşdırmanı Belçikanın Brügge şəhərinin yerləşdiyi Qərbi Flandriya bölgəsinin istintaq hakimlərinin apardığını qeyd edir. Axtarışlar isə Belçika Federal Polisi həyata keçirib.

"Euroactiv" portalı şahidlərə istinadən bildirir ki, çərşənbə axşamı səhər saat 07:30-da Avropa Xarici Əlaqələr Xidmətinin qərargahına təxminən on mülki geyimli əməkdaş daxil olub. Portalın məlumatına görə, araşdırma həmçinin Avropa Kollecinin diplomatların yaşaması üçün Şpanjardstraat küçəsindəki binanı necə əldə etməsi ilə bağlıdır. Belə "yoldaşlıq evinin" mövcudluğu tenderdə iştirak üçün vacib şərt olub.

Avropa Dələduzluqla Mübarizə Bürosu (OLAF) daha əvvəl 2021-2022-ci illərdə, yəni EEAS-a Jozep Borrelin rəhbərlik etdiyi dövrdə Aİ büdcə vəsaitlərinin təyinatı üzrə istifadə edilməməsi şübhələri ilə bağlı inzibati yoxlamalar aparıb. İstintaq, Avropa Kollecinin EEAS tərəfindən maliyyələşdirilən və Brüggedə yerləşən Avropa diplomatlarının illik təlim proqramı olan Aİ Diplomatik Akademiyasının yerləşdirilməsi və idarə edilməsi üçün tender haqqında məxfi məlumatlara əvvəlcədən çıxış əldə edib-etmədiyini araşdırır.

Xüsusi diqqət müəssisənin maliyyə çətinliklərinə baxmayaraq, Avropa Kollecinin 2022-ci ildə gələcək tələbələrin yaşaması üçün təxminən 3,2 milyon avro dəyərində yaşayış binasının almasına yönəldilib. Eyni tenderin nəticələrinə əsasən, kollec Aİ-dən təxminən 654 min avro maliyyələşdirmə alıb.

Araşdırmalar başlayanadək Avropa Kollecinə rektor Federika Mogerini rəhbərlik edib ki, o da Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə keçmiş Ali Nümayəndəsidir (2014-



2019). Artıq Avropa Xarici Fəaliyyət Xidmətinin Brüsseldəki qərargahında aparılan axtarışlardan sonra Federika Mogerini saxlanılıb. O, da tender saxtakarlığında şübhəli bilinir. Avropa Prokurorluğu qeyd edib ki, bu işdə saxlanılanların sayı cəmi üç nəfərdir. Aİ diplomatik xidmətində korrupsiya araşdırması zamanı həbs edilən növbəti şəxs qurumun keçmiş baş katibi Stefano Sannino olub. Üçüncü şübhəlinin adı açıqlanmır, yalnız bildirilir ki, o, Avropa Kollecinin meneceri, yəni Mogerinin işçisidir.

Josep Borrel kimi diplomatların adlarının dələduzluq, korrupsiya qalmaqallarında hallanması təəccüb doğuran və yaxud sensasiya sayıla biləcək bir xəbər deyil. Belə xəbərlər "qoca qitə"də tez-tez dolaşır. Açıqlanan faktlar onu deməyə əsas verir ki, ayrı-ayrı Avropa qurumlarında müxtəlif hüquqazidd əməllər, o cümlədən də dələduzluq, korrupsiya halları geniş yayılıb. Bütün dünyaya, xüsusilə də Şərq aləminə demokratiya, şəffaflıq və əxlaq dərsi keçmək iddiasında olan qoca qitənin mühüm təsisatlarından olan Avropa Parlamentində bir neçə il əvvəl yaşanan korrupsiya qalmaqalı hələ də yaddaşlardan silinməyib. Həmin hadisələr zamanı Avropa Parlamentinin vitse-prezidenti, yunan əsilli siyasətçi Eva Kaili və daha 3 nəfər Qətərdə keçirilən futbol üzrə dünya çempionatı ilə bağlı korrupsiya faktı üzrə ittiham olunaraq həbsə alınıblar.

Gözləmək olardı ki, Aİ-nin qurumlarının əməkdaşları qeyd olunan qalmaqaldan sonra korrupsiyaya birdəfəlik "yox" deyəcəklər. Ancaq belə görünür ki, Avropa təsisatlarında korrupsiyanın kökləri dərinə işləyib. Əks haldda Aİ yeni korrupsiya qalmaqalı ilə silkələnməzdi. Artıq ilk həbslər baş verib. Bu siyahıda Josep Borrelin adının da yer alıb-almayacağı isə zaman məsələsidir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayım" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Sosial şəbəkələrə nəzarət...

## Mexanizm necə olmalıdır?



Sosial media həyatımızın ayrılmaz hissəsələrindən biridir. Bu reallıqdan kənarda durmaq mümkün deyil. Lakin bir faktı da qeyd etməliyik, bəzən sosial şəbəkələrdə özbaşınalıq halları müəyyən xoşagəlməz sonluqla nəticələnir. Bir çox ekspertin fikrinə görə, bu kimi halların qarşısının alınması üçün sosial şəbəkələrə dövlət nəzarət etməli və etik normaları və istifadəçi qaydalarını pozan şəxslərə müəyyən cəzalar tətbiq olunmalıdır.

Bu yaxınlarda Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin birgə iclasında İnzibati Xətalar Məcəlləsinə müvafiq dəyişikliklər təqdim edilib. Layihədə qeyd olunur ki, cəmiyyətə hörmətsizliyi açıq şəkildə ifadə edən, lakin ayrı-ayrı şəxslərə qarşı zorakılıq və ya bu cür zorakılıq hədəsi ilə müşayiət olunmayan, özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə bağlı olmayan hərəkətlər xırda xuliqanlıq hesab ediləcək, inzibati həbs və cərimə ilə nəticələnəcək.

Xırda xuliqanlıq 50 manatdan 100 manatadək cərimə ilə cəzalandırılacaq. İşin hallarından asılı olaraq və təqsirkarın şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi qeyri-kafi hesab edildikdə, on beş sutkayadək müddətə inzibati həbs tətbiq edilə bilər.

Cərimə və inzibati həbs kimi tədbirlər bu cür məsələlələrə nə qədər güclü təsir göstərə bilər? Ümumiyyətlə, sosial şəbəkələrə nəzarət mexanizmi necə olmalıdır?

Sualımızı cavablandıran İKT üzrə mütəxəssis Elvin Abbasov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində bu məsələlərlə bağlı son dərəcə aydın qadağalar var. Lakin nədənsə sosial şəbəkə istifadəçiləri elə düşünürlər ki, istədikləri hər cür məzmunu paylaşa bilərlər və bunun üçün heç bir məsuliyyət daşımayacaqlar: "Sevindirici haldır ki, həm inzibati, həm də cinayət müstəvisində daha sərt qaydaların tətbiqi gündəmə gəlib. Çünki bu, belə davam edə bilməz. Mütləq şəkildə bu sahədə hüquqi mexanizmlər işləməli, cəmiyyət qorunmalıdır".

### Bu barədə çoxdan düşünməli idik...

E.Abbasov qeyd edib ki, 2017-ci ildə Almaniya hökuməti sosial şəbəkə operatorları ilə müqavilə bağlayıb və bu cür məzmunlarla bağlı xüsusi hüquqi mexanizmlər formalaşdırılıb: "Qaydanı pozan hər hansı şəxsin məlumatları dərhal dövlət orqanlarına ötürülür və onların barəsində hüquqi tədbirlər görülür. Bizdə niyə olmasın? Bu barədə çoxdan düşünməli idik. Xatırladım ki, 2025-ci ildə 19 martda süni intellektlə bağlı qəbul edilən strategiyada təhlükəsizlik riskləri xüsusi olaraq qeyd olunmuşdu. Yəni lazımi tədbirlər görülməzsə, təhdidlər qaçılmaz olacaq. Bu səbəbdən həm aidiyyəti dövlət qurumları, həm də cəmiyyət ayıq olmalı, məsuliyyətlə reaksiya verilməlidir".

### Azyaşlılar üçün məhdudiyyətlər

Ekspertin sözlərinə görə, nəzarət mexanizmlərinin gücləndirilməsinin digər vacib tərəfi azyaşlıların sosial şəbəkələrdən istifadəsi zamanı müəyyən xoşagəlməz halların baş verməsi ilə əlaqədardır: "Məsələn, Almaniyada, Niderlandda müxtəlif yaş kateqoriyalarını azyaşlı hesab edirlər. Bəzisində 13, bəzisində 14-15 və ya 16 yaş azyaşlı hesab olunur və limitlər tətbiq olunur. Müxtəlif ölkələrin qanunvericiliyində azyaşlıların internetdən istifadəsini tənzimləyən qaydalar mövcuddur. Təbii ki, Türkiyədə, Avropa ölkələrində bu məsələ dəfələrlə gündəmə gəlib. Həm ümumi, həm də xüsusi şəbəkələrdə azyaşlıların fəaliyyəti beynəlxalq standartlarla tənzimlənir, müxtəlif şəbəkələr bu standartlara istinadla qaydalar tətbiq edir və bu qaydalara görə azyaşlıların hansı tip kontekt və məzmunlara baxıb izləyə biləcəkləri qeyd olunur. Əgər uşaqlar öz valideynlərinin telefonlarından sosial şəbəkəyə daxil olurlarsa, orada məhdudiyyət tətbiq edilə bilmir, çünki sosial şəbəkə platforması öz istifadəçisinin məlumatlarını tanıyır. Məlumatlarda yetkin insanın datalarıdır. Sosial şəbəkə valideynin adından uşağın platformaya daxil olduğunu bilmir, ona görə də azyaşlılara qadağa qoyulan kontekt və məzmunlar açıq olur. Əgər valideyn övladının sosial şəbəkədən faydalı şəkildə istifadə etməsini istəyirsə, övladına öz telefonunu deyil, uşağın adına olan telefonlarda sosial şəbəkə açmalıdır ki, orada uşağın yaş kateqoriyası dəqiq göstərilsin. Bundan sonra həmin yaşa uyğun məzmun tənzimlənməsi mümkün olacaq. Uşaqlar valideynlərinin telefonlarından, böyüklərin adına alınmış telefonlardan və böyüklərin istifadə etdikləri sosial platformalara daxil olduqları üçün sosial şəbəkə istifadəçisinin həqiqi məlumatları ilə tanış ola bilmir, nəticədə manipulyasiya baş verir".

*Yeganə BAYRAMOVA*

# "Reydjbeyt"



## Oksford lüğəti 2025-ci ilin sözünü elan edib

Oksford lüğəti "reydjbeyt" (rage bait) terminini 2025-ci ilin sözü elan edib.

Tengrinews.kz saytına istinadla xəbər verir ki, bu məlumatı Oksford Universitetinin nəşriyyat şöbəsi yayıb.

**Nə deməkdir?**

Mütəxəssislər "reydjbeyt"i diqqəti cəlb etmək və əhatə dairəsini artırmaq üçün qəsdən yaradılan təxribat xarakterli onlayn-kontent kimi müəyyən ediblər. Termin ingilis dilindəki "rage" (qəzəb) və bait (tələ, yem) sözlərindən yaranıb. Oksford dilçilərinin məlumatına görə, son 12 ayda bu sözün işlənmə tezliyi üç dəfə artıb.

**Söz necə yaranıb**

Termin ilk dəfə 2002-ci ildə Usenet platformasında dərc olunan bir yazıda ortaya çıxıb. Həmin vaxt bu söz yol vermək tələbi kimi qəbul edilən faraların yanıb-sönən işıqlarına sürücünün reaksiyasını bildirirdi.

Sonralar söz internet söyüşləri kimi trend kontentlər üçün istifadə olunmağa başlayıb.

Lüğətdə qeyd olunur ki, zamanla "reydjbeyt" jurnalistlərin gündəlik dilinə daxil olub. Termin geniş yayıldığı üçün "reydjfarminq" (rage-farming) anlayışı meydana gəlib. Bu söz istifadəçilərin reaksiyalarını təxribat xarakterli materiallarla manipulyasiya etmək cəhdlərini, qəzəb, qıcıqlanma və ya müzakirə olunan mövzuya əlavə maraq yaratmağı təsvir edir.

Xatırladaq ki, 2024-cü ildə Oksford lüğəti ilin sözü kimi "brain rot" ("beyin çürüməsi") terminini elan etmişdi. Bu termin aşağı keyfiyyətli internet kontentin intellektual qabiliyyətlərə dağıdıcı təsirini əks etdirir.

*İdman*

# Azərbaycan paralimpiyaçıları 2025-ci ildə ümumilikdə 61 medal qazanıblar

Azərbaycanda paralimpiya hərəkatı sürətli inkişaf yolu keçib və bu gün beynəlxalq aləmdə uğurlu nəticələr göstərir. Azərbaycan paralimpiyaçıları 2025-ci ildə beynəlxalq yarışlarda yaxşı nəticələr nümayiş etdiriblər. Paralimpiyaçılarımız 22 qızıl, 18 gümüş və 21 bürünc olmaqla, ümumilikdə 61 medal qazanıblar. Bu il idmançılar arasında bir dünya və iki Avropa çempionu var.



Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Milli Paralimpiya Komitəsindən bildirilib.

Beynəlxalq Əlillər Günü hər il dekabrın 3-də BMT Baş Assambleyasının 14 oktyabr 1992-ci il tarixli Qətnaməsinə uyğun olaraq bütün dünyada qeyd olunur. Məqsəd əlillərin ictimai həyatın bütün sahələrində hüquqlarının təbliği, habelə geniş ictimaiyyətin diqqətini onların problemlərinə cəlb etməkdir. Paralimpiya hərəkatı və paralimpiyaçılar Beynəlxalq Əlillər Gününün hədəflərinin irəliləməsində böyük rol oynayırlar. Paralimpiyaçılar sağlamlıq imkanları məhdud olan şəxslərlə bağlı stereotiplərə meydan oxuyaraq inanılmaz cəsarət və dözüm nümayiş etdirirlər.

2025-ci il gənc paralimpiyaçılarımız üçün əlamətdar olub. Yeddinci dəfə təşkil edilən Avropa Gənclər Paralimpiya Oyunlarında debüt edən Azərbaycan Milli Paralimpiya komandası 7 idman növündə 17 idmançı ilə təmsil olunub və yarışı 4 qızıl, 2 gümüş, 7 bürünc medalla bitirib.

Qeyd olunub ki, hazırda idmançı reyestri üzrə 100-ə yaxın paralimpiyaçı 10 idman növündə (9 yay, 1 qış idman növü) məşqlərini davam etdirir.

Bildirilib ki, yeniyetmə paralimpiyaçılarımız bu il Serbiyanın Zlatibor şəhərində keçirilmiş ISF U-15 Gimnaziada İdman Oyunlarında 3 qızıl, 2 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 9 medal qazanıblar.

Məlumat üçün qeyd edək ki, Qafqazda yerləşən ölkələr arasında paralimpiya təmayüllü yeganə Paralimpiya İdman Kompleksi Sumqayıt şəhərində fəaliyyət göstərir.



# "Azercell Telekom" MMC qadınların dəstəyinə yönəlmiş təşəbbüslərini davam etdirir

### *Lider mobil operator sosial layihə müsabiqəsinin qaliblərini elan edir*

"Azercell Telekom" MMC qadınların ictimai və iqtisadi həyatda fəallığının artırılması istiqamətində gördüyü silsilə tədbirləri davam etdirir. Şirkət "Həyatı daha dolğun edirik: qadınlara dəstək proqramı" müsabiqəsinin qaliblərini elan edib. Qiymətləndirmə zamanı dayanıqlıq, sosial təsir, rəqəmsal inklüzivliyin təşviqi, həmçinin texnologiya vasitəsilə həyat keyfiyyətinin yaxşılaşdırılması kimi meyarlara cavab verən layihələrə üstünlük verilib.

Final mərhələsinə beş layihə keçib. Təqdim olunan ideyalar əsasən qadın sahibkarlığının inkişafı və təhsilin gücləndirilməsi istiqamətlərini əhatə edib. Finalda iştirak edən qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarının nümayəndələri münsiflər qarşısında layihələrini təqdim ediblər. Münsiflər heyətinin yekdil qərarına əsasən "Future Fem", "Start Her" və "Robo Girls" layihələri qalib elan olunub.

"Future Fem" layihəsi qadınların sahibkarlıq, innovasiya və liderlik sahəsində praktiki bilik və bacarıqlarını artırmağı, onların iqtisadi və sosial həyatda rolunu gücləndirməyi hədəfləyir. Eyni zamanda, qadın liderlər və texnologiya mütəxəssisləri ilə mentorluq imkanları yaradır.

"Start Her" layihəsi çərçivəsində Quba rayonu və ətraf kəndlərdən 20 gənc qıza startap və sahibkarlıq, eləcə də liderlik bacarıqlarının inkişaf etdirilməsi üçün 3 ay ərzində təlimlər təşkil olunacaq. Təlim proqramının sonunda qızların qazandıqları bilikləri və ideyalarını nümayiş etdirmələri üçün hakaton keçiriləcək.

"Robo Girls" layihəsinin məqsədi Beyləqan və ətraf kəndlərdə təhsil alan qızların robototexnika və texnologiyalara marağını gücləndirmək, eləcə də yeni nəsil qadın İT və süni intellekt mütəxəssislərinin yetişdirilməsinə töhfə verməkdir.

Təşəbbüslərin reallaşdırılmasına dəstək məqsədilə Azercell ümumilikdə 30.000 AZN vəsait ayırıb.

Müsabiqənin qiymətləndirilmə prosesi şəffaflıq və obyektivlik prinsiplərinə əsaslanaraq, bu sahədə ixtisaslaşmış müstəqil ekspertlərdən ibarət münsiflər heyəti tərəfindən həyata keçirilib.

"Azercell Telekom" MMC müsabiqəyə qatılan bütün iştirakçılara təşəkkür edir, qaliblərə layihələrinin həyata keçirilməsində uğurlar arzulayır. Şirkət ölkədə innovasiya və inklüzivliyin təşviqinə töhfə verən layihələrə dəstək olmağa davam edəcək.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2474
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova